Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününüz və Yeni iliniz mübarək!

GÜNDOĞAR

20 dekabr 2016-cı il № 34-35-36-37 (6623) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

Ümummilli lider Heydər Əliyevin vəfatından 13 il keçir

AZƏRBAYCANIN YENİ TARİXİNİ YAZAN BÖYÜK İNSAN

1993-cü ildə vəziyyət artıq kritik həddə çatmışdı. Azərbaycan xalqı öz taleyindən narahat idi və buna onun haqqı vardı. Hər bir Azərbaycan vətəndaşı sabit və təhlükəsiz cəmiyyətdə yaşamaq istəyirdi və bunun üçün xalqın iradəsinə güvənən qətiyyətli bir siyasi komandanın hakimiyyətə gəlməsi vacib idi. Heydər Əliyevin hakimiyyətə gəlişi də məhz bu tarixi şəraitin məntiqi nəticəsi kimi xarakterizə edilməlidir.

1993-cü ilin yayında Azərbaycan real vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldı. Surət Hüseynovla hakimiyyət strukturları arasında yaranmış münaqişə bütövlükdə dövlətçiliyin taleyini sual altında qoymuşdu. Bütün bunlara son qoymaq və ölkədə ictimai-siyasi sabitlik yaratmaq, cəmiyyətin ümumi təhlükəsizliyini təmin etmək üçün xalqın böyük əksəriyyətinin təkidli tələblərindən sonra Heydər Əlirza oğlu Əliyev Bakıya dəvət olundu. Ölkəni gözləyən real vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılmasına nail olan Heydər Əliyev ictimai-siyasi sabitliyin yaranmasını da təmin etdi. Məhz onun müdrik fəaliyyəti nəticəsində Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas oldu.

Yenidən Azərbaycana rəhbərlik edən Heydər Əliyev müasir dünyanın ziddiyyətli və ədalətsiz reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də, dünya dövlətlərinin diqqətini ölkəmizin üzləşdiyi işğal faktının da əsl səbəblərinə yönəltməyə nail ola bildi.

Möhtərəm Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycanda yeni bir tarixi mərhələnin əsasını qoydu. Ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində əhəmiyyətli addımlar atıldı. Bu dövrdən ictimai münasibətlər sistemi təkmil bir strategiya əsasında inkişaf etməyə başladı, iqtisadi tənəzzülə son qoyuldu. Bütün bunlar müstəqil Azərbaycan dövlətinin sosial və siyasi dayaqlarını möhkəmləndirdi və respublikanın ümumi inkişafını təmin etdi. Ümumiyyətlə, Heydər Əliyev fenomeninin həqiqi mahiyyətini Azərbaycanın ən yaxın tarixinin ölçüyəgəlməz uğurları ilə xarakterizə etmək mümkündür. Heydər Əliyev Azərbaycanda yoxdan bir dövlət yaratdı və məhz buna görə də bütün dünya bu dahi şəxsiyyəti müstəqil Azərbaycan dövlətinin qurucusu kimi tanıdı.

İlk növbədə bir mühüm amilə nəzər salmaq lazımdır ki, XX əsrin sonlarında Azərbaycanda müstəqil dövlət yaratmaq, eyni zamanda onun yaranmasını təmin etmək kifayət qədər çətin bir məsələ idi. Bu, təkcə regionun özünün daxili problemi ilə bağlı deyildi. Cənubi Qafqazın böyük dövlətlərinin geosiyasi maraqlarının toqquşduğu bir ərazini əhatə etdiyindən burada olduqca düşünülmüş və praqmatik siyasət yürütmək tələb olunurdu. Heydər Əliyev bunu da bacardı və müvəffəqiyyətlə həyata keçirdi. Həm Rusiya, həm də Qərb regionda baş verən proseslərə birbaşa nəzarət etmək, burada öz nüfuzlarını möhkəmləndirmək üçün ciddi mübarizə aparırdılar və təbii ki, bu iki əks qütbün arasında Azərbaycanın ən real inkişaf strategiyasını müəyyənləşdirmək böyük siyasi məharət, təcrübə tələb edirdi. Heydər Əliyev qısa vaxt ərzində balanslaşdırılmış xarici siyasət yürütməyə, geosiyasi maraqların Azərbaycanın marağı ziddinə toqquşmasının qarşısını almağa nail oldu. Respublikamızın postsovet dövlətlərinin əksəriyyəti ilə müqayisədə öz müstəqilliyini daha sürətlə möhkəmləndirə bilməsi, iqtisadi inkişafa daha tez nail olması da elə bu siyasətin nəticəsi idi. Ümummilli lider möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə ötən dövrdə ictimai-siyasi sabitliyin təmin olunması istiqamətində mühüm addımlar atıldı. Çünki dövlət quruculuğu prosesinin reallaşması sabitliyin təmin olunmasından asılı idi. Bu bütün dövlətlərin tarixində öz əksini tapmış

qanunauyğunluqdur. Azərbaycanda da eynilə bu cür oldu və dövlət quruculuğuna başlamaq üçün daxili sabitsizliyi aradan qaldırmaq zərurəti ortaya çıxdı. 1993-cü il bir sıra mühüm siyasi dəyişikliklərlə yadda qaldı və həmin dövr ərzində Azərbaycanın yeni tarixinə müstəqil dövlət quruculuğu prosesinin başlanğıcı kimi daxil oldu.

Cəmiyyətin təhlükəsizliyinə təminat vermək imkanına malik idarəetmə sisteminin formalaşması isə hələ uzun bir dövrü əhatə edən islahatların aparılmasını tələb edirdi. Bu islahatları müharibə faktorunun gündəmdə qaldığı bir ölkədə sürətlə həyata keçirmək mümkün deyildi. Bu mənada 1994-cü ildə imzalanmış atəşkəs sazişi olduqca mühüm əhəmiyyət kəsb edirdi. Müharibənin dayanması bütün iqtisadi və siyasi resursları dövlətin dirçəldilməsinə yönəltməyə imkan verdiyindən Azərbaycan çox qısa bir vaxt ərzində böhrandan və tənəzzüldən qurtarmağa nail oldu.

1994-cü ildə "Əsrin müqaviləsi" adlanan böyük tarixi razılaşmanın imzalanması iqtisadi potensialın dövlət quruculuğu prosesinə cəlb edilməsinə imkan verən unikal layihələrin həyata keçirilməsini təmin etmişdir. Bu layihələr Azərbaycanı nəinki iqtisadi kataklizmlərdən qurtarmış oldu, eyni zamanda onu regionun real iqtisadi və siyasi güc mərkəzinə çevirdi. İndi dönüb geriyə baxarkən "Əsrin müqaviləsi"nin Azərbaycana hansı dividentlər gətirdiyini görməmək, sadəcə, mümkün deyildir. Yeni neft strategiyasının uğurlu nəticələri təkcə vətəndaşların sosial rifahının təmin olunmasını deyil, həm də dövlətin əsaslarının möhkəmləndirilməsini həyata keçirməyə şərait yaratmış oldu. Kimin necə qiymətləndirməsindən asılı olmayaraq, bu faktdır ki, ölkənin taleyini təhlükələrdən sığortalayan bu hadisə Azərbaycanda əldə edilmiş nailiyyətlərin əsasını təşkil edir.

Heydər Əliyevin dünya miqyaslı bir siyasi lider olduğunu təsdiqləyən onlarla fakt göstərmək mümkündür. O, həyatının bütün dövrlərində böyük dövlət xadimi, əsl rəhbər olduğunu nümayiş etdirə bilmişdir. Heydər Əliyev adi bir şəxsiyyət deyildir. O, fenomen qüdrətə malik idarə-edici, etalon sayıla biləcək siyasətçi idi. Bu insanın daxilində ilahi bir enerji var idi desək, yanılmarıq.

Heydər Əliyev deyirdi ki, mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, azərbaycanlıyam. Bu, ümummilli liderimizin qəbul etdiyi həyat prinsipi idi və ömrünün son günlərinə kimi o, bu prinsipə sadiq qalmaqla həm də bütün azərbaycanlılara nümunə göstərdi — Heydər Əliyev nümunəsi. O, belə yaşamışdır və mənsub olduğu xalqın hər bir nümayəndəsinə də belə yaşamağı təlqin edirdi.

Heydər Əliyev həm də öz fəaliyyəti, qeyri-adi siyasi gedişləri, yüksək intellektual potensialı və nitq üslubuna görə də müasir siyasi xadimlərin bir çoxundan fərqlənirdi. Onun kifayət qədər müasir, eyni zamanda ciddi və özünəhörmət təlqin edən geyim üslubu, hər bir kəlməsi ilə harmoniya yaradan jestləri, qarşısındakı müsahibini olduqca dəqiq şəkildə dinləmək bacarığı və onun bütün sözlərini yaddaşına həkk etməsi bir çoxlarında təəccüb və heyranlıq hissi doğururdu. Və bunu etiraf edirdilər. O, hətta bəzilərinə kiçik görünə biləcək məsələlərdə də əsl siyasətçi keyfiyyətini nümayiş etdirə bilirdi və bu, tamamilə təbiidir. Çünki Heydər Əliyev sanki həyata elə bu cür gəlmişdi, onun təbiəti belə idi.

2003-cü ilin prezident seçkiləri Heydər Əliyev siyasi kursunun tarixi qələbəsi ilə yadda qaldı. Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti ümummilli liderimizə sarsılmaz inamını ifadə edərək onun siyasətinin davam etdirilməsinə səs verdilər. Bu seçkilər Azərbaycanda uzun illərdən bəri qəti şəkildə möhkəmlənmiş qəti bir fikri yenidən təsdiqlədi ki, Heydər Əliyevin alternativi olmadığı kimi, onun siyasi varisinin də alternativi yoxdur. Xalqımız öz müdrik oğlunun müəyyənləşdirdiyi siyasi kursa, onun şəriksiz müəllifi olduğu dövlətçilik ideyalarına sadiqdir və Heydər Əliyevin ideyaları əslində, elə müstəqil Azərbaycan dövlətinin ən düzgün inkişaf prinsipləridir.

Cənab İlham Əliyev də Heydər Əliyev siyasi kursunun davamçısı kimi hər zaman qədirbilən xalqının dəstəyinə arxalanır və bunu daim hiss edir, çünki bu, xalqın Heydər Əliyev siyasətinə və onun siyasi varisinə münasibətinin ən bariz nümunəsidir.

İllər ötəcək, zaman dəyişəcək, amma dəyişməyən təkcə ulu öndər Heydər Əliyevin əbədiyaşar ölməz ideyaları olacaq. Azərbaycan durduqca bu ideyalar da yaşayacaq, millətinin, xalqının əsgəri olan bir dahinin adını da tarixlərdə yaşadacaqdır.

Ulu öndərə el ehtiramı

Zəmanəmizin görkəmli siyasi xadimi ulu öndər Heydər Əliyev bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxtliyinə, doğma Azərbaycanımızın tərəqqisinə həsr etmişdir. Bu böyük insan tarixi yaradan, onu daha da zənginləşdirməyi bacaran dahi şəxsiyyətlərdəndir. Müasir tariximizin bütöv bir epoxası — 34 ili bu müdrik insanın adı və fəaliyyəti ilə bağlıdır. Müstəqil Azərbaycan dövlətinin yaradıcısı və memarı kimi o, quruculuq, qəhrəmanlıq salnaməmizin heç vaxt pozulmayacaq şanlı səhifələrini yaratmağa müvəffəq olmuşdur.

Elə buna görədir ki, xalqımız öz dahi oğlunu heç vaxt unutmur, onu daim minnətdarlıq hissilə yad edir, ruhu qarşısında baş əyir. Ulu öndərin doğumu və vəfatının ildönümü günlərində keçirilən tədbirlərin xüsusilə geniş xarakter alması da bu dahi insana olan hörmət və ehtiramdan irəli gəlir. Həmin qürurverici

günlərdə yüz minlərlə insanlar ümummilli liderin abidəsi önünə gələrək dahi rəhbəri anır, buraya əklillər qoyur, tər çiçəklər düzürlər. Həmin əlamətdar günlərdə Bakının Fəxri Xiyabanında daha böyük izdiham yaşanır. Nəinki Bakı şəhərindən, ölkənin regionlarından, ayrı-ayrı şəhər və rayonlardan da buraya gələnlərin sayı-hesabı olmur. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq hər kəs xalqımızı bəladan qurtaran, Azərbaycanı inkişaf yoluna çıxaran, böyük çətinliklə qazandığımız müstəqilliyimizi qoruyaraq onu dönməz və əbədi edən bu dahi insanın ruhu qarşısında baş əyərək ona qadir Allahdan qəni-qəni rəhmət diləyir.

Dekabrın 12-də — ulu öndər Heydər Əliyevin anım günündə neftçalalılar da kədərli hisslərlə yaşayırdılar. Ümummilli liderin aramızda olmaması onların da qəlbini niskillə doldurur. Amma həm də qürurlanırlar. Fəxr edirlər ki, həmişə tarixlərdə yaşayacaq, zaman-zaman yad olunacaq liderimiz var. Möhtərəm Heydər Əliyev rayon sakinlərinə bir də ona görə əziz, doğmadır ki, Neftçalanın müstəqil rayon kimi yenidən fəaliyyətə başlaması bilavasitə bu müdrik insanın adı ilə bağlıdır. Əgər 1973-cü



ildə bu proses baş verməsəydi, yəqin ki, Neftçala bu günkü inkişaf səviyyəsinə gəlib çata bilməzdi. Rayonumuzun sakinlərinin haqlı olaraq Neftçalanı Heydər Əliyev rayonu adlandırmaları, ulu öndərin köməyini yüksək dəyərləndirmələri də bununla bağlıdır.

Ümummilli liderə ehtiram daimi, əbədi olduğundan dekabrın 12-də bu il də respublikamızın hər yerində olduğu kimi rayonumuzda da böyük canlanma vardı. Əvvəlki günlərdən fərqli olaraq həmin gün ulu öndərin adını daşıyan meydanda izdiham yaşanırdı. Hamının çöhrəsində kədər qarışıq bir

qürur hissi vardı. Bütün xalqımız, millətimiz kimi neftçalalılar da öz ümummilli liderləri ilə fəxr edirdilər. İnanırdılar ki, qoyduğu işıqlı yol davam edəcək, Azərbaycan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında bir-birindən layiqli uğurlara imza atacaq. Xalqımız xoşbəxt yaşayacaq.

Əslində anım tədbirləri xeyli əvvəldən başlanmışdı. Ümummilli lider Heydər Əliyevin vəfatının 13-cü ildönümü ilə əlaqədar ulu öndərin adını daşıyan Mərkəzdə, rayonun idarə və müəssisələrində, məktəblərdə, mədəniyyət obyektlərində, uşaq bağçalarında bir-birindən maraqlı, rəngarəng tədbirlər təşkil olunmuşdu. Bu tədbirlərin əsas təşkilatçılarından olan Yeni Azərbaycan Partiyasının rayon təşkilatı xüsusilə fəallıq nümayiş etdirmişdi. Tədbir iştirakçıları möhtərəm Heydər Əliyevin haqqında ürək sözlərini bildirmişdilər, bir-birindən isti, unudulmaz xatirələrini söyləmişdilər. Ulu öndərin necə böyük çətinliklərlə üzləşdiyinin, bu çətinlikləri necə məharətlə aradan qaldırdığının şahidi olan yaşlı nəslin nümayəndələrinin xatirələri xüsusilə maraqla dinlənilmişdi. Sevimli Heydər babaları haqqında şeirlər söyləyən, nəğmələr oxuyan balacalar əsl sevgi nümayiş etdirmiş, gənclər dahi rəhbərin yoluna sadiq qalacaqlarını bildirmişdilər.

Biz bu böyük sevgini anım günündə daha dərindən gördük,

hiss etdik. Rayon sakinləri respublikamızın inkişafı ilə bağlı görülən işlərdən, həyata keçirilən tədbirlərdən məhəbbətlə söhbət açdılar. Meydana toplaşanların sayı durmadan artırdı. Hamının da çöhrəsində sonsuz qürur hissi vardı. Ulu öndəri tərənnüm edən musiqinin əzəmətli melodiyaları pərdə-pərdə ətrafa yayılır, ürəklərdəki qürur hissi daha da artırdı.

Saat 10-da rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, rayonun rəhbər işçiləri də meydana gəldilər. Meydana toplaşanlar onları səmimiyyətlə salamladılar.

İlk olaraq rayon icra hakimiyyəti adından abidə önünə əklil

qoyuldu. Sonra idarə və müəssisələrin kollektivləri də abidə önünə gəldilər. Çoxlu sayda sadə insanlar ulu öndərə olan hörmət və ehtiramlarını buraya düzdükləri tər çiçəklərlə bildirdilər. Onların sırasında partiya və əmək veteranları, gənclər də az deyildi. Hamı abidə qarşısında baş əyməyi özünə borc bilirdi. Ümummilli lider Heydər Əliyev bu böyük el sevgisini xalqı, milləti, Vətəni qarşısındakı böyük xidmətlərinə görə qazanmışdır.

Anım gününə həsr olunan intellektual yarış

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi rayonumuzda da bir-birindən maraqlı silsilə tədbirlər keçirilmişdir. Belə tədbirlərin ən yaddaqalanlarından biri də Heydər Əliyev Mərkəzində təşkil edilən ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş məktəblilər arasındakı intellektual yarış oldu. Tədbiri giriş sözü ilə mərkəzin direktoru Ruhəngiz Nəcəfova açaraq bu tədbirin hazırlanmasında onlara dəstək verib kömək göstərən rayon rəhbərliyinə və təhsil şöbəsinin kollektivinə dərin təşəkkürünü bildirdi, mərkəzdə ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi istiqamətində aparılan işlərdən danışdı, bu tədbirin də həmin məqsədə xidmət etdiyini söylədi.

Münsiflər heyətinin üzvü, rayon icra hakimiyyəti başçısı aparatının məsul işçisi Vasif Əliyev ulu öndərin irsinin öyrənilməsinə xidmət edən belə tədbirlərin əhəmiyyətindən danışdı, bu maraqlı tədbirin təşkilatçılarına təşəkkürünü çatdırdı.

Tədbirin əsas təşkilatçılarından biri olan rayon təhsil şöbəsinin nümayəndəsi Ələvsət Rzayev yarışma hazırlanarkən ən çox hansı məsələlərə diqqət yetirildiyi, komandaların ilkin mərhələdə necə seçildiyi barədə məlumat verdi, iştirakçılara uğur arzuladı.

Sonra söz yarışı idarə edən aparıcıya — şəhər 3 saylı tam orta məktəbinin direktoru Vüqar Dadaşova verildi. Vüqar müəllim intellektual oyunun qaydalarından danışdı, bu qaydaları yarış iştirakçılarına izah edib aydınlaşdırdı. Bildirdi ki, 3 yarımfinal və 1 final mərhələdən ibarət olan yarışda 9 məktəbin komandası iştirak edəcək. Yarımfinal mərhələsində komandalara 7 sual təqdim olunacaq, hər düz cavab da 1 balla qiymətləndiriləcək. Finala çıxan komandalar isə 10 sualla qarşılaşacaqlar. Sonda I, II və III yerləri tutan qalib komandalara diplom və qiymətli hədiyyə təqdim ediləcək.

İlk olaraq yarış şəhər 4 saylı, Həsənabad və Bankə qəsəbə 1 saylı tam orta məktəblərinin komandaları arasında keçirildi. Komanda üzvlərinin maraqlı, düşündürücü suallara verdikləri hər bir dolğun, tutarlı cavab diqqətlə izlənilir, alqışlarla qarşılanırdı. Bu mərhələdə şəhər 4 saylı tam orta məktəbinin komandası daha yaxşı oyun nümayiş etdirdi və finala çıxdı.

Daha sonra şəhər 3 saylı tam orta məktəbinin, "Muğan" liseyinin və Mirqurbanlı kənd tam orta məktəbinin komandaları üz-üzə gəldilər. Qızğın və gərgin mübarizə şəraitində keçən bu yarışda şəhər 3 saylı tam orta məktəbinin şagirdləri daha fəal iştirak etdilər və finala vəsiqə qazandılar.

Üçüncü mərhələdə isə şəhər 1 və 2 saylı, Bankə qəsəbə 2 saylı tam orta məktəblərinin komandaları yarışdılar. Bu gərgin yarışda şəhər 1 saylı tam orta məktəbinin şagirdləri üstün gələrək üçüncü finalçı oldular.

Yarışın final mərhələsi daha gərgin keçdi və yaddaqalan oldu. Hər komandanın qalib adı uğrunda apardığı gərgin mübarizə alqışlarla qar-

şılanırdı. Burada geniş dünyagörüş, hərtərəfli biliklə yanaşı iti düşüncə, hər bir suala daha tez cavab tapmaq da mühüm rol oynayırdı. Ona görə komanda üzvləri çalışırdılar verilən suallara daha tez cavab tapsınlar və səhvə yol verməsinlər. Bu, yarışın marağını daha da artırırdı.

Final mərhələdə şəhər 4 saylı tam orta məktəbinin komandası daha yüksək nəticə əldə etdi və qalib adını aldı. Şəhər 3 saylı tam orta məktəbinin komandası 2-ci, şəhər 1 saylı tam orta

məktəbinin komandası isə 3-cü yeri götürdü.

Sonda qalib komandaların üzvlərinə, Heydər Əliyev Mərkəzinin direktoru Ruhəngiz Nəcəfovaya və 1-ci yeri tutan şəhər 4 saylı tam orta məktəbinin direktoru Şəfəq Balaşovaya diplomlar və qiymətli hədiyyələr təqdim edildi, birgə xatirə şəkilləri çəkdirildi.

Zaur ƏSGƏROV, müəllim

XALQIN SEVGİSİNİ QAZANMAQ BÖYÜK XOŞBƏXTLİKDİR

Bu böyük sevgidə neftçalalıların da öz payları var

Hər bir cəmiyyətin layiqli uğurlar, nailiyyətlər qazanması, xoşbəxt yaşaması ilk növbədə siyasi hakimiyyətin qarşısında duran vəzifələrin öhdəsindən necə gəlməsindən və müəyyənləşdirdiyi proqramların, qəbul olunan qərarların icrasından asılıdır. O cümlədən ictimai-siyasi sabitlik, iqtidar komandasının birliyi, monolitliyi də uğurları şərtləndirən, nailiyyətləri təmin edən amillərdəndir. Dövlət başçısı cənab İlham Əliyevin ictimai həyatımızın siyasi, sosial-iqtisadi sifarişlərinə uyğun vaxtında, çevik qərarlar qəbul etməsi, problemlərə həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, eyni zamanda xoş ovqatını təmin edən mühüm amillərdir.

Əlbəttə, Prezident İlham Əliyev idarəetmədəki bu zəngin təcrübəyə, dünya liderlərinin dəyərləndirdiyi müdrik, uzaqgörən siyasətin incəliklərinə birdən-birə yiyələnməmişdir. Bunun ilk bünövrəsi ailə mühitindən başlanmışdır. Möhtərəm Heydər Əliyev kimi dahi şəxsiyyətin, siyasət nəhənginin, ən yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən Zərifə xanım Əliyeva kimi nəcib xanımın ailəsində böyüyən, tərbiyə alan İlham Əliyev şübhəsiz ki, bunları görüb götürməyə, özündə birləşdirməyə bilməzdi. Sonrakı illərdə dünyanın elm mərkəzlərindən biri kimi tanınan Moskvada aldığı yüksək təhsil, möhtərəm Heydər Əliyevin rəhbərliyi altında işlədiyi illər onu daha da zənginləşdirdi. Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, birinci vitse-prezidenti vəzifələrində çalışan cənab İlham Əliyev Azərbaycanın yeni milli neft strategiyasının işlənib hazırlanmasında yaxından iştirak etmiş, dövlətçiliyin qorunub saxlanılmasında, ölkəmizin demokratik dəyərlər üzərində qurulmasında ulu öndərin ən yaxın silahdaşı olmuşdu. O çətin illər eyni zamanda İlham Əliyevi möhkəmləndirmiş, zənginləşdirmiş, mürəkkəb vəziyyətlərdə necə hərəkət etməyin, düzgün qərarlar çıxarmağın yollarını öyrətmişdi.

Qazandığı zəngin təcrübə, möhtərəm Heydər Əliyevdən əxz etdiyi yüksək ali keyfiyyətlər cənab İlham Əliyevin Milli Məclisin deputatı olduğu illərdə də özünü qabarıq şəkildə göstərdi. Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinə rəhbərlik edən cənab İlham Əliyev burada da özünün bacarığını, nəyə qadir olduğunu əyani şəkildə göstərərək AŞPA-nın vitse-spikeri, Büro üzvü kimi Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında böyük əmək sərf etmişdi. Ölkəmizin dünyəvi dövlət quruculuğunda fəal iştirak edən, ona tapşırılan, etibar edilən bütün vəzifələrin öhdəsindən layiqincə gələn İlham Əliyev, eyni zamanda tanınmış, böyük nüfuz qazanmış partiya xadimidir. Ölkəmizin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının I və II qurultaylarında əvvəlcə partiya sədrinin müavini, birinci müavini seçilən bu ali şəxs indi ona uğurla rəhbərlik edir, partiyanın daha da güclənməsi üçün böyük səylər göstərir, ardıcıl tədbirlər həyata keçirir. Cəmiyyət həyatındakı fəal iştirakının, nail olduğu yüksək keyfiyyətlərin, idarəetmədəki bacarığının nəticəsi idi ki, cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri kimi yüksək posta təyin olunmuşdu.

Bu o vaxt idi ki, ölkə növbəti prezident seçkiləri ərəfəsində idi. Məhz həmin dövrdə xəstəliyi səbəbindən namizədliyini geri götürən möhtərəm Heydər Əliyev bütün həyatını verdiyi xalqına, millətinə son tarixi müraciətini edərək özünün siyasi varisinə - İlham Əliyevə dərindən inandığını, etibar etdiyini bir daha diqqətə çatdırdı. Əminliklə vurğuladı ki, başlanmış işıqlı yolu yalnız o davam etdirə bilər. Ona görə də ulu öndər xalqı seçkilər günü İlham Əliyevə səs verməyə çağırdı. Xalq da öz müdrik rəhbərinə inandığından onun çağırışına laqeyd qalmadı, gələcək taleyini gənc siyasətçiyə etibar etdi.

Az sonra Prezident İlham Əliyevin təntənəli andiçmə mərasimində dediyi "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözlərindən artıq 13 il vaxt keçir. Bu qısa zaman kəsiyində Azərbaycan əsrə bərabər inkişaf yolu keçib. 2004-2008, 2009-2013, 2013-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası ayrı-ayrı yerlərin, ərazilərin yox, bütövlükdə ölkənin inkişafını, çiçəklənməsini təmin etdi. Bu gün respublikamızın paytaxtı ilə regionlarını o qədər də fərqləndirmək olmur. Vaxtı ilə hər cəhətdən geridə qalan, heç bir kommunikasiya sistemi olmayan regionlar bu gün başdan-başa qazlaşdırılıb, yollar çəkilib, məktəblər tikilib, olimpiya kompleksləri, diaqnostika mərkəzləri fəaliyyətə başlayıb. Elə bir sahə yoxdur ki, orada bir yenilik, təzəlik olmasın. Bütün bunlar isə əyalətlərdə yeni müəssisələrin yaradılmasına, turizm potensialının işə salınmasına şərait yaradıb. Çoxlu sayda insanlar daimi iş yerləri ilə təmin olunublar. İndi xarici şirkətlər, iş adamları tərəddüd etmədən öz investisiyalarını təkcə ölkənin mərkəzinə deyil, əyalətlərinə, regionlarına da həvəslə yatırırlar. Bu isə həmin ərazilərin daha sürətli inkişafına, əhalinin daha xoşbəxt yaşamasına öz müsbət təsirini göstərir.

Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş müdrik siyasət bütün sahələrdə ölkəmizə uğurlar gətirir, əldə olunan nailiyyətlər daha da möhkəmləndirilir. Bu ali şəxs bütün dünyada dövlətimizin və xalqımızın əvəzsiz təmsilçisinə çevrilmişdir. İndi Azərbaycan regionun lider ölkəsi kimi güc və söz sahibidir. Bu gün onun razılığı olmadan regionda heç bir layihəni həyata keçirmək mümkün deyildir.

Bu narahat, tələtümlü dünyada ölkəmizin öz siyasi sabitliyinə görə dünya ölkələrinə nümunə olması hər birimizi ürəkdən sevindirir, qəlbimizdə sonsuz qürur hissi doğurur. Yürüdülən uğurlu daxili və xarici siyasət nəticəsində

ölkəmizdə yaşayan bütün millətlər qardaş kimi çiyin-çiyinə verərək mehriban yaşayır, qurub yaradırlar. Tolerant, multikultural dəyərləri özündə yaşadan kiçik Azərbaycanın dünyaya verdiyi böyük mesajlar xarici siyasətimizin başlıca istiqamətləridir. Son illər ən mühüm beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsinə önəm verilməsi də ona olan

inamdan, etimaddan irəli gəlir. Çox sevinirik ki, indiyə kimi bu tədbirlərdə bir dəfə də olsun narahatlıq, xoşagəlməz hərəkət, mənzərə yaranmamışdır. Azərbaycan vətəndaşının bütün hüquqlarının təmin olunması, etibarlı şəkildə

qorunması onun xoş sabaha olan inamını daha da artırır. Özü də bütün bunlara çətin müharibə, dünyanı bürüyən iqtisadi böhran şəraitində nail oluruq. Bu isə nəticənin çəkisini, sanbalını ikiqat artırır. Bütün bunlar həyata keçirilən kompleks tədbirlərin bəhrəsidir.

1994-cü ildə ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində reallaşan Azərbaycanın neft strategiyası sonrakı illərdə Prezident İlham Əliyevin səyləri sayəsində daha da şaxələnməyə, genişlənməyə başladı. Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verəcək "Cənub qaz dəhlizi", TAP, TANAP layihələri bilavasitə dövlət başçımızın uğurlu siyasətinin bəhrəsidir. Bu layihələr ölkəmizə böyük miqdarda sərmayələr gətirməklə yanaşı onun Avropa məkanındakı rolunu, əhəmiyyətini də artırır. Yaxın vaxtlarda işə düşəcək Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi ölkəmizi uzaq Çinlə birləşdirəcəkdir ki, bu da iqtisadi gücümüzü xeyli dərəcədə artıracaqdır. Yaxın qonşularımız Rusiya və İranla, digər ölkələrlə yeni iqtisadi əlaqələrin qurulması, müqavilələrin imzalanması da bu cəhətdən az əhəmiyyət kəsb etmir.

Dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, iqtisadi böhranın yaranması indi daha çevik addımlar atmağı, kompleks yeni iqtisadi islahatların həyata keçirilməsini tələb edir. Son vaxtlar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, xüsusilə kənd təsərrüfatının inkişafı ilə bağlı müvafiq tədbirlərin görülməsi də bu məqsədə xidmət edir. Belə böhranlı, çətin şəraitdə iqtisadi inkişafı təmin etmək, şübhəsiz ki, böyük nailiyyətdir. İndi Azərbaycanda yerli istehsalın genişləndirilməsinə, biznes mühitinin hər vasitə ilə yaxşılaşdırılmasına, lazımsız yoxlamaların aradan qaldırılmasına, lisenziyalarla bağlı vəziyyətin yaxşılaşdırılmasına daha çox üstünlük verilməsi də bununla bağlıdır və gələcəkdə biz bu ağıllı, müdrik siyasətin bəhrəsini daha aydın görəcəyik.

Müharibə şəraitində olan Azərbaycan hərbi qüdrətinin artırılmasını da unuda bilməzdi. Bu sahənin inkişafına hər il daha çox vəsaitin ayrılması, Milli Ordumuzun ən müasir silahlarla təchiz olunması da bununla bağlı idi. Ordumuzun möhtəşəmliyini, silahlarımızın müasirliyini keçirilən hərbi paradlarda dəfələrlə görmüşdük. Bu ilin aprel döyüşləri isə onun nəyə qadir olduğunu, əsgər və zabitlərimizin qəhrəmanlığını əyani şəkildə açıb göstərdi. Hərb tariximizə qızıl hərflərlə yazılan bu döyüşlərdəki parlaq qələbələrimizin əsas təşkilatçısı və ilhamvericisi isə Ali Baş Komandanımız cənab İlham Əliyev idi. Erməni kimi qəddar düşmənlə üz-üzə dayanan ordumuz vaxtında tamamilə yenidən qurularaq modernləşdirilməsəydi, yəqin ki, Azərbaycan belə parlaq qələbəyə nail ola bilməzdi. Daha böyük, daha parlaq qələbəmiz, zəfərimiz isə üçrəngli bayrağımızın qeyrət qalamız olan Şuşada dalğalanacağı gün olacaq, hər birimiz şanlı qələbə münasibətilə dövlət başçımızın, Ali Baş Komandanımızın Azərbaycan xalqını, qəhrəman ordumuzu təbrik edəcəyi o unudulmayacaq, heç vaxt yaddan çıxmayacaq həmin tarixi günü böyük intizarla, səbrsizliklə gözləyirik.

Prezident İlham Əliyevin uğurlu siyasətinin bəhrəsini Azərbaycanımızın ayrılmaz parçası olan doğma Neftçalamızın inkişafında, tərəqqisində də açıq-aydın görürük. Son illər burada həyata keçirilən böyük quruculuq işləri də ümumi inkişafımızın məntiqi nəticəsidir. Prezident İlham Əliyevin yaxından köməyi, dəstəyi olmasaydı, yəqin ki, rayonumuz belə sürətlə inkişaf edərək uğurlara nail ola bilməzdi. Bütün xalqımız kimi qədirbilən neftçalalılar da dövlət başçısını dəstəkləməkdən qürur duyurlar. Əmindirlər ki, rayonumuzun gələcək inkişafı, neftçalalıların daha yaxşı yaşaması üçün bundan sonra da lazımi addımlar atılacaqdır.

Qarşıdan çox əlamətdar günlər gəlir. Xalqımızın Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qarşılamağa hazırlaşdığı bir vaxtda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 55 yaşının tamam olması bizim üçün ikiqat sevincdir. Bu münasibətlə qədirbilən neftçalalılar da Sizi - ölkəmizin müdrik Prezidentini, xalqını ürəkdən sevən qayğıkeş rəhbərini səmimiyyətlə təbrik edir, doğma Azərbaycanımızın tərəqqisi, xalqımızın xoşbəxtliyi naminə gələcək fəaliyyətinizdə Sizə möhkəm can sağlığı, yeni-yeni uğurlar, nailiyyətlər arzulayır.

"GÜNDOĞAR"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə rayon ictimaiyyətinə

T Ə B R Í K

Hörmətli neftçalalılar!

Sizi qarşıdan gələn əziz bayramlar — Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

Uzun illərdən bəri ayrı-ayrı ölkələrdə yaşayan soydaşlarımızın Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əziz bayramları kimi birlikdə, eyni gündə qeyd etmələrindən 26 il ötür. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ildə Naxçıvan Ali Məclisinin qərarına əsasən yaradılmış bu əziz gün uzun illərdir ki, dekabrın 31-də dünya azərbaycanlılarını eyni gündə bir araya gətirir. Təməli 26 il bundan əvvəl qoyulmuş bu müqəddəs gün getdikcə genişlənərək böyük hərəkata çevrilmişdir. Bu gün hansı ölkədə, hansı yerdə yaşamasından asılı olmayaraq dekabrın 31-də hər bir soydaşımız, hər bir azərbaycanlı öz doğma Vətəni ilə, dövləti ilə həmrəylik nümayiş etdirir, birlikdə sevinir, birlikdə qürurlanır.

Şübhəsiz ki, bu böyük birlik, həmrəylik birdən-birə yaranmamışdır. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarının bir araya gəlmələri, xarici ölkələrdə diaspor təşkilatlarının yaradılması, həmyerlilərimizin qəlbindəki, ürəyindəki Vətən sevgisinin gücləndirilməsi üçün böyük səylər göstərmişdir. Dünya Azərbaycanlılarının Bakıda keçirilən birinci qurultayı bu işdə çox mühüm rol oynamışdır. İndiyə kimi bir-birini tanımayan, bir-birindən xəbərsiz olan soydaşlarımız məhz həmin gündə bir araya gələrək ilk birliklərini, həmrəyliklərini nümayiş etdirdilər. Qurultaydan az sonra Dünya Azərbaycanlıları ilə İş üzrə Dövlət Komitəsinin yaradılması bu işin daha da genişlənməsinə, güclənməsinə yeni təkan verdi. Ulu öndər Heydər Əliyevin xarici ölkələrə səfərləri zamanı bu ölkələrdə yaşayan soydaşlarımızla görüşməyi daim diqqətdə saxlaması da təsirsiz qalmırdı. Həmyerlilərimizlə keçirilən belə səmimi görüşlər, onların qayğı və problemləri ilə yaxından maraqlanması, söhbət etməsi, lazımi köməkliklərin göstərilməsi soydaşlarımızın qəlbindəki Vətən sevgisini daha da artırırdı. Onlar günü-gündən inkişaf edərək dünyada tanınan, sayılıb seçilən müstəqil Azərbaycanla fəxr edirdilər. Onun durmadan möhkəmlənməsi, güclənməsi üçün yeni səylər göstərirdilər.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı tədbirlər nəticəsində ölkəmizin yeni-yeni uğurlara imza atması dostlarımızı nə qədər sevindirdisə, düşmənlərimizi də səksəndirirdi. Belə vəziyyətdə soydaşlarımızın daha sıx birliyinə nail olmadan, onların fəaliyyətini düzgün əlaqələndirmədən Azərbaycanın haqq səsini dünyaya, dünya ictimaiyyətinə çatdırmaq mümkün olmazdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bütün fəaliyyəti dövründə bu mühüm məsələni daim diqqətdə saxlaması, daha geniş tədbirlərin həyata keçirilməsi də bununla bağlı idi. Son illər bu istiqamətdəki tədbirlər xüsusilə genişlənmişdir. Azərbaycan diaspor təşkilatlarının türk diaspor təşkilatları ilə birlikdə çalışmaları, çirkin erməni təbliğatına qarşı birlikdə mübarizə aparmaları onların gücünü, qüvvətini xeyli dərəcədə artırmışdır. İndi Azərbaycan həqiqətləri dünyaya daha yaxından çatdırılır. Dünya ictimaiyyəti əsl həqiqəti daha aydın görüb anlayır. Bu işdə Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlərin də rolu böyükdür. Fondun vəsaiti hesabına hazırlanan müxtəlif təbliğat vasitələri bu işdə çox mühüm əhəmiyyət kəsb edir. Bütün bunları yüksək dəyərləndirən xalqımız əmindir ki, dövlətimizin başçısı cənab İlham Əliyevin ardıcıl səyləri, ordumuzun durmadan gücləndirilməsi ən yaralı yerimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həllində də təsirsiz qalmayacaqdır.

Əvvəlki illər kimi yola saldığımız 2016-cı il də xalqımız, dövlətimiz üçün uğurlu olub. Bu il müstəqilliyimizin yenidən bərpasının 25-ci ildönümünü böyük sevinc içində bayram etmişik. Yeni islahatlar kursu iqtisadiyyatımızın dayanıqlı inkişafına, kənd təsərrüfatının ayrı-ayrı sahələrinin, xüsusilə pambıqçılığın genişləndirilməsinə şərait yaradıb. Beynəlxalq tədbirlərin genişləndirilməsi, multikultural dəyərlərimizin təbliği ölkəmizin turizm potensialını xeyli dərəcədə artırıb. Dövlət başçısının bu günlərdə təsdiqlədiyi Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri ölkəmizin postsovet dövründə yeni inkişaf strategiyasıdır və bu ali dövlət sənədi gələcək perspektivləri dəqiq müəyyənləşdirir.

Yola saldığımız il rayonumuz üçün də əlamətdardır. Respublikamızda ilk pilot layihə kimi Neftçala Sənaye Məhəlləsində işlər tamamlanmaq üzrədir. Burada avtomobil zavodunun tikintisinə başlanması, rayonun Şirvan ərazisindən keçən Beştalı-Müşfiq yolunda işlərin davam etdirilməsi və digər işlər yaddaqalan hadisələrdir. Bununla yanaşı il ərzində ayrı-ayrı yerlərdə geniş abadlıq və quruculuq işləri həyata keçirilmiş, yeni yaşıllıqlar salınmışdır.

Belə əziz günlərdə biz Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizi də böyük minnətdarlıq hissilə yad edirik. Onların hər birinə qadir Allahdan qəni-qəni rəhmət diləyirik.

Əziz və hörmətli neftçalalılar!

Bir daha Sizi əlamətdar bayramlar münasibətilə ürəkdən təbrik edir, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününüz və Yeni iliniz mübarək olsun deyirəm.

İsmayıl VƏLİYEV,
Neftçala Rayonu İcra Hakimiyyətinin başçısı

Müxalifətə sözümüz: DOST BAXIB SEVİNİR, DÜŞMƏN XAR OLUR

Dünyamız özünün ən qarışıq, mürəkkəb, ziddiyyətli zamanlarından birini yaşayır. İstər Avropada, istərsə də Asiyada qədim tarixə, mədəniyyətə malik olan bəzi tanınmış ölkələrdə ictimai-siyasi sular bulanmış, həyat özünün dinc məcrasından çıxmışdır. Qanlı müharibələr, terrorlar nəticəsində hər gün yüzlərlə insan tələf olur, yaralanır, evlərindən, eşiklərindən didərgin düşür, məcburi miqranta çevrilir. Belə olan halda biz Azərbaycanda yaşadığımıza, bu ölkənin vətəndaşı olmağımıza sevinməliyik. Sevinməliyik ki, hər gün güllə səsinə, bomba partlamasına yuxudan ayılmırıq, qurub-yaratdıqlarımız xarabazarlığa çevrilmir. Əksinə, ölkəmiz gündən-günə çiçəklənir, gözəlləşir, həyat özünün sakit axarında davam edir, xalq əkir, biçir, evlər tikir, övlad oxutdurur. Müharibə şəraitində olsa da, ölkəmizdəki sürətli inkişaf düşmənlərimizin bağrına ox kimi sancılır.

Düşmənin bədxahlığı təbiidir, qəbulolunandır, amma öz içimizdə olan, özlərini müxalifət "düşərgəsi" adlandıranların mövqeyi bəzən təəccübdən çox təəssüf doğurur.

Əvvəla, burada "düşərgə" sözündən söhbət belə gedə bilməz. Çünki bu "düşərgə" heç əvvəldən olmayıb, bu gün də heç izi-tozu yoxdur. Vaxtilə kağız üzərində düşərgəyəbənzər nəsə vardısa, onu elə düşərgəyəbənzərin sakinləri özləri dağıtdılar, çünki daxili ambisiyalar, liderlik ehtirası, şöhrət azarı olan yerdə birlikdən danışmaq olmaz. Aralarındakı bu uçurumu indi də pula hərislik, "qrant" ehtirası daha da dərinləşdirmiş, dibi görünməyən zülmət quyuya çevirmişdir. İqtidarın, əslində isə xalqın hər yaxşı işinə, qələbəsinə, sevincinə şərik olmaq əvəzinə onu elə xalqın öz gözündən salmağa çalışırlar. Görəndə ki, xalq buna əhəmiyyət vermir, öz sakit işi ilə məşğuldur, bu işləri xarici havadarlarının, xaricdəki "hüquq müdafiəçilərinin" gözündən salmaq və əvəzində onlardan "qrant" almaq üçün dəridən-qabıqdan çıxırlar. Leyla Yunus, Əli Kərimli, Xədicə İsmayıl kimi könüllü "vəkillər" bu gün artıq bir-birlərinə qənim kəsilirlər. Beynəlxalq "hüquq"lara təqdim etdikləri ölkəmizdəki "siyasi məhbus" (?!) siyahılarını bir-birinin acığına daha artırırlar, təzə "müştəri" ovuna çıxırlar, görək kim birinci və ən çox "qrant" alacaq arzusu ilə yaşayırlar. Sözsüz ki, bu oyunlarda Azərbaycanın mənafeyi görünmür, yalnız "siyasi məhbus" biznesi adlı yeni "biznes" növü zühur edir.

Əcəba, görəsən başqa ölkələrdə də belə müxalifət mövcuddur? Müxalifət mövcuddur, amma beləsi yox. Məsələn, qardaş Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd zamanı ölkənin bütün müxalifət partiyaları birmənalı şəkildə birləşərək dövləti və dövlətçiliyi müdafiə etdilər, ölkə başçısı Rəcəb Tayyib Ərdoğanın yanında dayandılar. Türk öz türklüyünü, milli birliyini, sağlam şüurunu, Vətənə, yurda məhəbbətini bir daha sübut etdi və bu sübut, bu nümayiş qarşısında dünyanın bütün super gücləri aciz qaldılar! Nəinki aciz qaldılar, öz gizli planlarının üstü açıldığı üçün biabırçılıqdan heç üzr də istəyə bilmədilər! Çünki elə iş tutmuşdular ki, üzrü günahından betər idi... Bunun hamımız şahidi olduq: bütün dünya da, biz də. İqtidarımız da, müxalifətimiz də. Görəsən biz bu nümunədən nə öyrənə bildik, bir az da olsa qibtə hissi keçirdikmi? Biz də belə birləşə bilərikmi? Əlbəttə, birləşə bilərik, amma gərək şəxsi maraqları, maddi dəyərləri, karyera, vəzifə ehtirasını arxa plana keçirək, "öncə Vətən" deyək. Nəinki dünyaya car çəkib Vətəni "siyasi məhbus" evi kimi tanıtdıraq, Azərbaycan adlı məmləkəti gözdən salıb biabır edək. Nə var, nə var, xarici "qəyyumlar" kimlərəsə pul verəcək. Amma o "kimlər" bilmirlər ki, pulu kim verirsə, musiqini də o sifariş verir. Birdən pul verən göbək rəqsi sifariş verdi, onda necə olacaq?! Hə, bax, bu barədə fikirləşməyə dəyər. Fikirləşək, yaxşı fikirləşək...

Z.MƏMMƏDOV

Yeni Azərbaycan Partiyasının 24 illik zəfər salnaməsi

Sovet rejiminin və Kommunist Partiyasının süqutundan sonra müstəqillik əldə etmiş respublikalardan biri kimi Azərbaycanda da siyasi qurumların formalaşması prosesi 1988-ci ildən başlanan xalq hərəkatı gedişində özünü büruzə vermiş və 1990-cı ilin əvvəllərində bir sıra təşkilatlar yaranmışdı. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. O vaxt xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi və böyük təcrübəyə malik ümummilli lider Heydər Əliyev blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi.

Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyətin maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi — 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular.

Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu konfrans 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarı, partiyanın Proqramını və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi və beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firəvan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmiş olur.

1993-cü ilin oktyabr ayının 3-də YAP-ın sədri Heydər Əliyevin Prezident seçilməsi ilə partiyanın həyatında yeni dövrün əsası qoyulmuşdur. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmlənmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirmişdir. 1995-ci ilin noyabr ayının 12-də keçirilən parlament seçkilərində Milli Məclisə seçilən deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləri olduğundan YAP iqtidar partiyasına çevrilmiş, ona olan ümumxalq inamı bir daha təsdiq edilmişdir.

2003-cü ilin oktyabr ayının 15-də keçirilən prezident seçkilərində YAP sədrinin birinci müavini, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O vaxtdan başlayaraq partiya daha da irəli gedərək bu günkü inkişaf mərhələsinə gəlib çatmışdır. Keçirilən növbəti prezident, Milli Məclis, bələdiyyə seçkilərində topladığı yüksək səslər onun xalq tərəfindən dəstəkləndiyini bir daha əyani şəkildə göstərir. Ölkənin dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, onun beynəlxalq aləmdə özünə layiq yer tutması, hüquqi dövlət quruculuğu istiqamətində əsas məqsədlərin müəyyənləşdirilməsi partiyanın bu gün də qarşısında duran əsas vəzifələridir.

Partiyanın rayon təşkilatlarının yaradılması da həmin o çətin, ağrılı-acılı günlərə təsadüf edir. O cümlədən Neftçala rayon təşkilatının da. Burada da insanlar böyük çətinliklərlə üzləşirdilər, təqiblərə, təzyiqlərə məruz qalırdılar. Ancaq bütün bunlara baxmayaraq uzaqgörən neftçalalı ziyalılar, qabaqcıl insanlar da mövqelərindən dönmürdülər, onlar da Azərbaycan xalqının xoşbəxtliyini, ölkənin gələcək inkişafını, uğurlarını Heydər Əliyev dühasında, bu dahi insanın rəhbərlik etdiyi siyasi partiyada görürdülər. Elə buna görə çox keçmədən həmin neftçalalı ziyalılar, qabaqcıl insanlar da bir yerə toplaşaraq Yeni Azərbaycan Partiyasının rayon təşkilatını yaratdılar.

Artıq həmin tarixi gündən uzun illər keçir. Bu müddətdə rayon təşkilatı da inkişaf edərək xeyli dərəcədə möhkəmlənmişdir. İndi ölkəmizin, onun ayrılmaz parçası olan doğma Neftçalanın xoşbəxt sabahını, gələcəyini düşünən, arzulayan insanlar, xüsusilə gənclər tərəddüd etmədən Yeni Azərbaycan Partiyasının sıralarına daxil olur, aparılan quruculuq işlərində, partiyanın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində fəal iştirak edirlər. Hazırda rayon təşkilatında təmsil olunan partiya üzvlərinin sayı 4400 nəfərdən çoxdur ki, onların da 1800 nəfərə yaxını gənclərdir.

Əvvəlki illərdə olduğu kimi ictimai həyatımızın avanqardına çevrilmiş Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümü də respublikamızın hər yerində olduğu kimi rayonumuzda da böyük sevinc hissilə qeyd olundu. Həmin gün rayon təşkilatının üzvləri, ziyalılar, rayon ictimaiyyətinin nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək partiyanın yaradıcısına, müstəqilliyimizi əbədi və dönməz edən ulu öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər. Keçirilən tədbirlərdə partiyanın mübarizələrlə dolu şərəfli tarixinə bir daha geniş nəzər salındı, ulu öndər Heydər Əliyevin, möhtərəm Prezidentimiz, partiyanın sədri cənab İlham Əliyevin rəhbərlikləri altında qazanılan tarixi nailiyyətlər barədə iştirakçılara, rayon sakinlərinə ətraflı məlumat verildi.

F.ƏHMƏDOV

Nazir vətəndaşları qəbul etmişdir

Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu tərtib olunmuş qrafikə uyğun olaraq ardıcıllıqla davam etdirirlər. Belə qəbullar rayonumuzda da müntəzəm həyata keçirilib. Buraya gələn nazirlər və komitə sədrləri rayon sakinlərini dinləyərək onların müraciətlərinin bir çoxunu elə yerindəcə həll ediblər.

Dekabrın 9-da isə Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə rayonumuzda olmuşdur. Qəbul başlanmamışdan əvvəl rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və hörmətli nazir Ramin Quluzadə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri qoymuşlar.

Sonra qəbul başlanmışdır. Qəbulda Neftçala ilə yanaşı Salyan, Biləsuvar, Cəlilabad, Cəbrayıl rayonlarının vətəndaşları da iştirak edirdilər. Qəbul zamanı nazir vətəndaşların çoxsaylı müraciətlərini diqqətlə dinləmişdir. Müraciətlər əsasən telekommunikasiya, internet, poçt xidmətləri, işə qəbul, kadrların düzgün yerləşdirilməsi və digər məsələlərlə bağlı olmuşdur. Hər bir sakinin müraciətinə diqqətlə yanaşan nazir onların dəqiqliklə araşdırılması, qaldırılan məsələlərin və problemlərin qanunvericiliyin tələblərinə uyğun həll olunması üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə konkret tapşırıqlarını vermişdir.

Qaldırılan məsələlərin bir çoxu elə yerindəcə həll olunmuşdur. Bununla yanaşı nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər də diqqətdə olmuşdur. Onlar da qeydiyyata alınaraq həll olunmaq üçün müvafiq təşkilatlara göndərilmişdir.

Regional səfər çərçivəsində nazir Ramin Quluzadə aidiyyəti rayonların Telekommunikasiya qovşaqlarının və Poçt filiallarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirmişdir. Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, xidmət keyfiyyəti, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə sahə üzrə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılmışdır.

Sonda vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat, əlverişli şərait yaradılmasına görə Prezident İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirmişlər.

Ədliyyə işçilərinin peşə bayramı

İctimai həyatımızın və hüquqlarımızın mühüm bir hissəsi ədliyyə sisteminin fəaliyyəti ilə bağlıdır. Bu sistemin yaradılmasından artıq 98 il ötür. Bir əsrə yaxındır ki, bu sistem insanlara bu və ya digər sahələr üzrə müxtəlif hüquqi xidmətlər göstərir, qanunun aliliyinin etibarlı şəkildə qorunması üçün ardıcıl tədbirlər həyata keçirir. Ədliyyənin inkişafına daim diqqət göstərilməsi, bu sahədə çalışanların əməyinin layiqincə qiymətləndirilməsi də məhz bununla bağlıdır. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli sərəncamı ilə 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilməsi də onlara göstərilən qayğı və diqqətin yeni bariz nümunəsidir.

O vaxtdan başlayaraq respublikamızın ədliyyə orqanlarında çalışan minlərlə insanlar özlərinin peşə bayramlarını həmişə ümumi sevinc içində qeyd edirlər. Ənənələrinə sadiq qalaraq onlar bu il də əlamətdar günə yüksək əhvali-ruhiyyə ilə gəlmişdilər. Bunu Ədliyyə Nazirliyində və digər yerlərdə keçirilən təntənəli tədbirlər bir daha əyani şəkildə göstərdi.

Noyabrın 22-də rayonumuzun ədliyyə işçiləri də sevincli dəqiqələrlə yaşadılar. Ötən illərdə olduğu kimi onlar bu il də bayram tədbirinə ölkənin ədliyyə sisteminin yenidən qurulmasında və inkişafında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin abidəsinin ziyarətindən başladılar. Başda rayon məhkəməsinin sədri Elməddin İbrahimov olmaqla bütün ədliyyə işçiləri ulu öndərin adını daşıyan meydana toplaşmışdılar.

Mərasimdə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də iştirak edirdilər.

Abidə önünə əklil qoyuldu. İştirakçılar buraya tər çiçəklər düzdülər, dahi rəhbərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi. Rayon məhkəməsinin sədri Elməddin İbrahimov ölkə ədliyyəsinin 98 illik tarixinə geniş nəzər yetirərək onun inkişaf yollarından danışdı. Qeyd etdi ki, bu ilki bayramın müstəqilliyimizin 25-ci ildönümünə təsadüf etməsi onlar üçün ikiqat sevincdir. Sözünə davam edərək ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu sahəyə böyük qayğı və diqqət göstərdiyini vurğulayan Elməddin müəllim dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizin inkişafına yeni dinamikanın verildiyini, sabitliyin və təhlükəsizliyin təmin olunduğunu da diqqətə çatdırdı. Bildirdi ki, bayram ərəfəsində Prezident İlham Əliyevin 18 noyabr 2016-cı il tarixli sərəncamı ilə bir qrup ədliyyə işçisinin yüksək dövlət mükafatları ilə təltif olunması onları da ürəkdən sevindirib. Bunu Azərbaycan ədliyyəsinə verilən yüksək qiymət kimi dəyərləndirən Elməddin müəllim göstərdiyi diqqət və qayğıya görə rayonun ədliyyə işçilərinin adından dövlətimizin başçısına özünün səmimi minnətdarlığını bildirdi. Əminliklə vurğuladı ki, rayonun ədliyyə işçiləri ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarına bundan sonra da sadiq qalaraq ölkəmizin tərəqqisi, hüquqi-demokratik dövlət quruculuğunun daha da genişlənməsi üçün səylərini əsirgəməyəcəklər.

Tədbirdə iştirak edən qonaqlar, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də ürək sözlərini bildirdilər. Peşə bayramları münasibətilə ədliyyə işçilərini ürəkdən təbrik edərək onlara öz işlərində uğurlar arzuladılar.

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatında 2017-ci il üçün vətəndaşların qəbulu

C Ə D V Ə L Í

Sıra sayı	Qəbul edən məsul şəxsin vəzifəsi	Soyadı, adı, atasının adı	Qəbul günləri və qəbul saatları					
			I	II	III	IV	V	VI
1.	Rayon İcra Hakimiyyətinin başçısı	Vəliyev İsmayıl Məhərrəm oğlu	-	-	-	-	10:00 -dan	-
2.	Başçının birinci müavini	Əkbərov Vurğun Nizami oğlu	-	14:00-dan	-	-	-	-
	Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri – baş memar	Nağıyev Vüqar Fərhad oğlu						
3.	Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	Vakant	14:00 -dan	-	-	-	-	-
4.	Başçının müavini-İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri	Sadıqova Gültəkin Zakir qızı	-	-	14:00 -dan	-	-	-
5.	Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri	Cəfərov Anar Cəfər oğlu	-	-	-	14:00 -dan	-	-
6.	Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri	Hüseynov Ədalət Fətalı oğlu	-	-	-	-	-	14:00-dan

Qeyd:

1.Milli Qəhrəmanlar və onların ailə üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı vətəndaşlar müraciət etdikdə növbədənkənar qəbul olunurlar.

2.Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə, qəbul günləri növbəti iş gününə keçirilir.

3.Qəbulla bağlı əlaqə telefon nömrəsi: 0-21-26-3-42-43

4.Rayon İcra Hakimiyyəti başçısı aparatına vətəndaşlar tərəfindən mütəmadi qaydada müraciət etmək üçün qaynar xətt əlaqə nömrəsi: 0-21-26-3-42-57

5.Qəbulla bağlı elektron müraciətlər üçün e-mail ünvanı: mail@neftchala-ih.gov.az

6.Vətəndaşların qəbulu Rayon İcra Hakimiyyəti başçısı aparatının "Vətəndaşların qəbul otağı"nda keçirilir.

7.Vətəndaşlar qəbulla bağlı müraciət edərkən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir (şəxsiyyətini müəyyən edən rekvizitləri və ya elektron imza olduqda elektron xidmət vasitəsilə qəbula yazıla bilər)

8.Qəbul zamanı təqdim edilmiş yazılı müraciətlər "Vətəndaşların müraciətləri haqqında" Qanunun 7-ci maddəsinə əsasən qəbul edilir, qeydiyyata alınır və baxılır.

"Ölkəmizi tanıyaq" tur-aksiyası rayonumuzun şagirdləri üçün də yaddaqalan oldu

Son illərdə Azərbaycan dünyaya nümunə ola biləcək bir sıra layihələrə imza atıb. Ölkəmizdə "ASAN xidmət"in təşkili, multikultural dəyərlərin geniş şəkildə təbliği, tolerantlıq ənənələrinin yaşadılması, Bakının sülhməramlı beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi belə layihələrdən, işlərdəndir. Prezident İlham Əliyevin tapşırığına əsasən ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında keçirilən tur-aksiyalar da adından göründüyü kimi çox nəcib, vacib məqsədə xidmət edir və ayrı-ayrı ölkələr də bundan istifadə edərək faydalana bilirlər.

"Ölkəmizi tanıyaq" layihəsi doğrudan da ölkəmizi daha yaxından tanıtmağa, öyrənməyə xidmət edən aksiyadır. Öz ölkəsinin gözəlliklərini, tarixini, adət-ənənələrini və digər özəlliklərini, xüsusiyyətlərini hələ kifayət qədər bilməyən, bu barədə yetərincə məlumata malik olmayan gənc nəslə bu, xüsusilə vacibdir. Azərbaycanın tarixinin, inkişaf yollarının, müstəqillik dövründə qazandığı parlaq qələbələrinin, nailiyyətlərinin yetişməkdə olan gənc nəslə daha dərindən, daha əhatəli şəkildə tanıdılması onların vətənpərvərlik tərbiyəsində çox mühüm rol oynayır.

Bunu ötən illərdəki tur-aksiyalar zamanı əyani şəkildə görmüşdük. Şagirdlər həmin tur-aksiyalardan zəngin təəssüratlarla qayıtmışdılar. Gördükləri yerlər, aldıqları məlumatlar onların dünyagörüşlərini xeyli dərəcədə zənginləşdirmişdi. Məktəblilər bu barədə ürək dolusu söhbət açmış, təəssüratlarını bizimlə bölüşmüşdülər.

Noyabrın 17-də Heydər Əliyev Mərkəzinin qarşısında yaşanan böyük sevinc də bununla bağlı idi. Həmin gün neftçalalı məktəblilərin yeni bir qrupu ölkəmizin Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə yola salınacaqdı. Tur-aksiyanın iştirakçıları yola düşməzdən əvvəl şəhərin Heydər Əliyev prospektində xeyli sayda yeni ağac tingləri və gül kolları əkdilər. Sonra onlar ulu öndər Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər. Rayonun rəhbər işçilərinin, müəllim və valideynlərin, ictimaiyyətin nümayəndələrinin iştirakı ilə yola düşən məktəblilərin sevincinin həddi-hüdudu yox idi. Niyə də sevinməyəydilər?! Müstəqil Azərbaycan onlar üçün qurulmuşdu, onlar üçün yaradılmışdı. Ona görə də şagirdlər dövlətimizin qurucusunu — ümummilli lider Heydər Əliyevi böyük məhəbbətlə yad edirdilər, bu gözəl şərait üçün möhtərəm Prezidentimiz cənab İlham Əliyevə özlərinin səmimi minnətdarlıqlarını bildirirdilər...

Əvvəlki tur-aksiyalarda olduğu kimi şagirdlər bu dəfə də dörd günlük səfərdən zəngin təəssüratla qayıtdılar. Sevinclərinin həddi-hüdudu yox idi, fərəhləri yerə-göyə sığmırdı. Öyrəndik ki, səfər boyu ayrı-ayrı rayonlardan keçən şagirdlər əsasən ən qədim şəhərlərimizdən olan Gəncənin, füsunkar Göygölün, Şəmkirin gəzməli, görməli yerləri ilə yaxından tanış olmuşlar. Gəncə şəhərindəki Heydər Əliyev adına Milli Park, Heydər Əliyev Mərkəzi, Cavad xan Məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamam, Xan bağı, Amfiteatr, Gəncə avtomobil zavodu, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Cömərdi Qəssab Türbəsi, Nizami Gəncəvinin məqbərəsi və digər tarixi yerlər onlarda zəngin təəssürat yaratmışdır. Alman kirxası, alman evləri, sonuncu alman Viktor Klaynın ev muzeyi, Hacıkənd qəsəbəsi, Göygöl milli parkı isə Göygöl rayonuna məxsus tarixi yerlərdir. Marşrutlarına davam edən şagirdlər Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri", "Abidələr" parkı, Alman kilsəsi, İstiqlal parkı, "Nəfis çörək zavodu" ilə tanış olmuşlar. Ayrı-ayrı rayonlardakı Heydər Əliyev mərkəzləri, Bayraq meydanları, Bayraq muzeyləri, tarix-diyarşünaslıq muzeyləri, istirahət parkları ilə tanışlıq aksiya iştirakçılarını daha da zənginləşdirmişdir.

Səfər zamanı məktəblilərin istirahətləri, sağlamlıqları, asudə vaxtlarının təşkili də daim diqqət mərkəzində olmuşdur. Keçirilən intellektual oyunlar, əyləncəli proqramlar və digər maraqlı tədbirlər şagirdlərin ürəyindən olmuşdur. Bizim üçün sevindiricidir ki, bu oyunlarda, proqramlarda neftçalalı məktəblilər də yüksək fəallıq göstərərək bacarıq və qabiliyyətlərini nümayiş etdirə bilmişlər.

Tur-aksiyada hər rayondan, o cümlədən Neftçaladan 45 şagird iştirak etsə də, onların öz təəssüratlarını yoldaşları ilə bölüşməsi bu aksiyaların təsir dairəsini xeyli dərəcədə genişləndirir. Bu isə təkcə bir qrup şagirdin yox, bütöv məktəblilərin maariflənməsinə, ölkəmizi daha yaxından tanımalarına şərait yaradır. Tur-aksiyaları keçirməkdən məqsəd də elə budur.

Murad ƏHMƏDOV

ƏLİYEVLƏR AİLƏSİ HAQQINDA UNUDULMAZ XATİRƏLƏRİM

Mən əvvəldən ulu öndər Heydər Əliyevin müdrik xarici və daxili siyasətini ürəkdən bəyənmiş, həmişə, hər bir işdə bu böyük şəxsiyyətin yanında olmuşam. Bu gün də ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu uğurla davam etdirən, bu yolla bizi işıqlı gələcəyə aparan möhtərəm Prezidentimiz İlham Əliyevin yanındayam, hər bir işdə, hər bir məsələdə möhtərəm Prezidentimizin siyasətini ürəkdən dəstəkləyirəm. Bu yaxınlarda keçirilmiş axırıncı referendumda da möhtərəm Prezidentimizin kursunu dəstəklədim, bu nurlu şəxsiyyətin müəyyənləşdirdiyi yola "hə" dedim.

Xəyalım məni uzaq müharibə illərinə aparır. Xəzər dənizi ta qədimdən onun sahilində yaşayan insanların, eləcə də bizim Neftçala rayonunun sakinlərinin əsas ümid yeri, qida mənbəyi olub. Bizi o müdhiş müharibə, aclıq illərindən də elə səxavətli Xəzər dənizi, bu dənizin bol balıq sərvəti çıxarıb.

Yadımdadır, o vaxt yaşım az olsa da kəndimizdəki balıqçılıq kolxozunda işləyirdim. Xəzər boyu ərazilərin kişi əhalisi müharibəyə aparıldığına görə balıqçıların sayı azalmışdı. Ona görə az yaşımla onlara qoşula bilmişdim. Bizi səfərbərliyə alaraq rayonumuzun ərazisindən xeyli kənarlarda da balıq ovlamağa aparırdılar.

1944-cü ildə biz respublikamızın balıqçılarından təşkil olunmuş böyük bir heyətin tərkibində gedib Dağıstan sularına çıxmışdıq. Orada heyətimizin üzvlərini Dağıstan vilayətinin rəhbərləri, şəxsən Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi Əziz Əliyevin özü qarşıladı. Mən möhtərəm Prezidentimiz İlham Əliyevin babası Əziz Əliyevin mehriban, nurlu çöhrəsini birinci və çox heyf ki, həm də axırıncı dəfə məhz onda gördüm, bu böyük insanın böyük şəxsiyyəti ilə onda tanış oldum. Bu böyük insanın böyük şəfqətini də onda gördüm, onda hiss etdim. Əziz Əliyev heyət üzvlərimizin qarşısında geniş bir nitq söylədi, bizi o ağır illərdə fədakarlığa, Azərbaycanın adını uca tutmağa, üzünü ağ etməyə çağırdı. Sonra heyət üzvləri ilə səmimi söhbətə başladı. Hamıdan kiçik olduğuma görə mənə ayrıca yaxınlaşdı, mehriban əlini başıma çəkərək məni balıqçılara ayrıca tapşırdı. Əziz Əliyevin şəfqətli əlinin hərarətini indi vücüdumda hiss edirəm. Məhz bu böyük şəxsiyyətin xüsusi tapşırığından sonra heyət üzvləri arasında hörmətim artdı, mənə daha diqqətlə yanaşmağa, daha rahat işlər tapşırmağa başladılar...

1969-cu ildə ulu öndər Heydər Əliyev respublika rəhbərliyinə gələnə qədər Azərbaycanda sözün əsl mənasında durğunluq hökm sürürdü. Onda mən 1000 nəfərdən artıq işçisi olan Neftçala Neft və Qazçıxarma İdarəsinin nəqliyyat kontorunda partiya təşkilatının katibi vəzifəsində çalışırdım. Yadımdadır ki, ulu öndər Heydər Əliyevin iş başına gəlməsi ilə az bir vaxt ərzində respublikada böyük dönüş yarandı. İşinin öhdəsindən gələ bilməyən neçə nazir, komitə sədri, idarə başçısı tutduğu vəzifədən azad edildi, hər yerdə ciddi qaydaqanun yaradıldı. Elə bizim Neftçala rayonu da 1973-cü ildə ulu öndərimizin diqqəti və qayğısı sayəsində Salyan rayonundan ayrılaraq müstəqil rayon kimi fəaliyyət göstərməyə başladı. Bundan 6 il sonra, 1979-cu ilin mayında möhtərəm Heydər Əliyev özünün qurub yaratdığı, qayğısına qaldığı rayonumuza tarixi səfərini etdi. Bu səfər rayonumuzun sakinlərinin qəlbində, yaddaşında xoş, unudulmaz bir xatirə kimi indi də yaşayır. Həmin səfər mənim də yaxşı yadımdadır. Onda mən də respublika rəhbərinə müraciət etmiş, bu böyük şəxsiyyətə nəsə bir ehtiyacımızı bildirmişdim. Bu da belə baş vermişdi...

Ulu öndər rayonumuzun mərkəzində çox böyük coşqu ilə, görünməmiş bir təntənə ilə qarşılandı. Respublika rəhbəri izdihamın arası ilə irəliləyərək indiki Qələbənin 40 illiyi meydanına yaxın bir yerdə ayaq saxladı. Adamlara lap yaxınlaşaraq üzünü bizə tutdu, kimin nə sözü, şikayəti varsa, çəkinməsin,

desin, — dedi. Onda rayonda su cəhətdən bir qədər çətinlik var idi. Mən də ürəklənib dedim, yoldaş Əliyev, hər şey yaxşıdır, bircə su cəhətdən çətinliyimiz var. Bu məsələ də düzəlsə lap yaxşı olar.

Onu da deyim ki, Heydər Əliyev çox zəhmli olmaqla yanaşı həm də olduqca səmimi, mehriban, hazırcavab bir insan idi. O, mənim sözümə ürəkdən gülərək üzünü rayon partiya komitəsinin birinci katibi İbrahim Qurbanova tutdu:

— Rayonun bir qapısını açsan Kürə, birini də açsan Xəzərə düşərsən — dedi. — Bu qədər bol suyu olan bir yerdə camaata niyə su vermirsiniz? Bir də qulağıma belə şikayət çatmasın.

Hamı güldü, ölkə rəhbərinin müdrikliyinə, hazırcavablığına heyran qaldı...

Ulu öndər Heydər Əliyevlə bağlı bir xatirəm də yadımdadır. Bir dəfə də mən bu böyük şəxsiyyətlə Nuruş Əliyev adına kolxozun pambıq tarlasında üz-üzə gəlmişdim. Onda gərək ki, respublika rəhbəri Salyana səfərindən yolüstü dönüb ora gəlmişdi. Rəhbərin pambıq yığımının vəziyyətini öyrənmək üçün gəldiyini eşidən idarə müdirlərinin, əlaqədar təşkilatların başçılarının çoxu tez-tələsik bir taksi tutub nişan verilən yerə gəlmişdilər. Birdən ulu öndər yan-yana düzülmüş taksilərə baxıb kolxozun sədri Nuruş Əliyevdən xəbər aldı:

— Bu taksilər burda nə gəzir, bu qədər taksini bura niyə yığıbsınız?

Rayon avtonəqliyyat idarəsi partiya təşkilatının katibi kimi irəli çıxıb dedim:

— Yoldaş Əliyev, taksiçilərimiz də öz taksiləri ilə pambıq yığımına köməyə gəliblər.

Heydər Əliyev yenə gülümsər halda üzünü kolxozun sədrinə tutdu:

— Gözlərin aydın olsun, — dedi. — Taksiçilər də köməyinə gəliblər, daha sənin nə dərdin?!

Əliyevlər ailəsi ilə bağlı mənim bir unudulmaz, yaddan çıxmayan xatirəm də var. 1980-ci illərin əvvəllərində böyük oğlum Raci ağır xəstə yatırdı, onun ağ ciyərinə su yığılmışdı. Rayon mərkəzi xəstəxanası həkimlərinin məsləhəti ilə oğlumu Bakının Suraxanı rayonundakı o vaxt Dzerjinskinin adını daşıyan məşhur xəstəxanaya apardım. Vəziyyəti ağır olduğuna görə həyat yoldaşım da oğlumun yanında qalırdı. Onda Gülarə xanım Əliyeva da hansı xəstəliyinə görəsə orada müalicə alırdı. Həyat yoldaşım Gülarə xanımla yaxınlaşmış, təmas yaratmışdı. Oğluma baş çəkməyə gedəndə həyat yoldaşım dedi bu qədər məşhur olan adamlar necə də sadə, səmimi imişlər. Elə buna görə də o, Gülarə xanımı həmişə böyük məhəbbətlə xatırlayırdı.

Yeri gəlmişkən deyim ki, həmin xəstəxana indi Əziz Əliyevin adını daşıyır. Oğlum xəstəxanada müalicə olunduğu vaxt Zərifə xanım Əliyeva da orada müalicə olunan bacısı Gülarə xanıma baş çəkməyə gəlmişdi. Həyat yoldaşımın Gülarə xanımla yaxınlığını görüb oğlumla ayrıca maraqlandı, onu müalicə edən Azad həkimə ayrıca tapşırdı. Onda Zərifə xanımın şəxsən özünün də respublikanın tibb işçilərinin arasında hörməti və nüfuzu olduqca böyük idi, bu xanım öz sahəsinin çox böyük alimi idi. Zərifə xanımın tapşırığından sonra oğluma diqqət və qayğı daha da artdı, az vaxtda o sağalaraq evə qayıtdı. Bunlar bütün Əliyevlər ailəsinin sadəliyini, səmimiliyini, nəcibliyini, xeyirxahlığını əyani şəkildə göstərən konkret faktlardır.

Belə bir nəcib, alicənab ailədə tərbiyə olunaraq yetişən möhtərəm Prezidentimiz İlham Əliyev də həmin ənənələri ləyaqətlə davam etdirir, özünün sadəliyi, səmimiliyi, qayğıkeşliyi ilə bütün ölkə əhalisinin rəğbətini, məhəbbətini qazanır. Buna görə hər bir işdə, hər bir məsələdə xalq tərəfindən birmənalı şəkildə dəstəklənir, qarşıya qoyduğu vəzifələr layiqincə yerinə yetirilir...

Teymur ƏHMƏDOV,
Neftçala şəhər sakini,
əmək veteranı

2016-CI İL YADDAŞIMIZDA NECƏ QALDI

Ölkəmizdə

Müstəqilliyimizin bərpasının 25 ili tamam oldu

25 ildir ki, xalqımız azad və xoşbəxt yaşayır. Dövlətimiz heç kimin, heç kəsin diqtəsi olmadan özünün müstəqil siyasətini yeridir, demokratik dəyərlərlə inkişaf edən, uğurlar qazanan Azərbaycanı dünyada tanıdır. Əlbəttə, bütün bunlar birdən-birə olmayıb. Çox çətin sınaqlardan keçmişik. Təqiblərlə, təzyiqlərlə, sui-qəsdlərlə, dövlət çevrilişlərilə, vətəndaş müharibəsi ilə üz-üzə qalmışıq.

AXC-Müsavat cütlüyünün səriştəsizliyi, hakimiyyət hərisliyi hansı fəlakətlərə səbəb olmayıb?! Xaosun, anarxiyanın, başıpozuqluğun ağrı-acılarını, çətinliklərini yaşayan xalqımız öz nicatını, xilasını zəngin dövlətçilik təcrübəsinə malik dünya şöhrətli oğlunda — Heydər Əlirza oğlu Əliyevdə görərək onu təkidlə Bakıya dəvət edib. Məhz bu dahi insanın qayıdışından sonra hər şey dəyişməyə, yenidən qurulmağa başladı.

Bəli, 25 ildir ki, müstəqilliyimiz dönmədən irəli gedərək inkişaf edir, möhkəmlənir, əbədi və sarsılmaz olur. Biz buna ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində nail olmuşuq.

Xalqının, millətinin böyük etimadından sonra ölkəmizin yeni Prezidenti, rəhbəri seçilən cənab İlham Əliyev də ilk andiçmə mərasimində Heydər Əliyev siyasətinə sadiq qalacağını, bu yolun davam edəcəyini bəyan etmişdi. Söz söz olaraq qalır. Ulu öndərin dərin zəkaya söykənən uzaqgörən müdrik siyasəti dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun yeni yaradıcılıqla zənginləşdirildikcə ölkəmiz daha sürətlə inkişaf edir. Azərbaycanın beynəlxalq aləmdəki uğurları durmadan artır.

Multikultural dəyərlər daha geniş şəkildə təbliğ edildi

İlin əvvəlində dövlətimizin başçısı cənab İlham Əliyev ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyət və sivilizasiyalararası dəyərlərə çox mühüm töhfələr verdiyini nəzərə alaraq 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması barədə sərəncam imzalamışdır. Respublikamızdakı tolerantlıq ənənələrinin, multikultural dəyərlərin kökləri çox qədimlərə gedib çıxır. Burada müxtəlif xalqların, etnik qrupların nümayəndələri həmişə mehriban yaşayıblar. Ulu öndər Heydər Əliyevin ölkəmizdəki tolerantlığın qorunub saxlanılması istiqamətində gördüyü işlərin son illər xüsusilə genişləndirilməsi dünya ölkələri üçün də bir nümunədir. Bunu dünyanın beynəlxalq təşkilatları, aparıcı telekanallar və digər kütləvi informasiya vasitələri də yüksək dəyərləndirirlər. Bu yaxınlarda Azərbaycanda səfərdə olan Roma Papasının bu məsələyə xoş münasibətini bildirməsi də bizim üçün böyük önəmdir. Bu önəmi biz, eyni zamanda İsrail dövlətinin Baş naziri Benyamin Netanyahunun bir neçə gün bundan qabaq ölkəmizə etdiyi səfəri zamanı da aydın şəkildə hiss etdik.

"Multikulturalizm ili" çərçivəsində respublikamızda bir-birindən dəyərli tədbirlər təşkil edilib, ölkəmizdəki tolerant ənənələri geniş təbliğ olunub. Azərbaycanın tarixən müxtəlif xalqların, millətlərin və din mənsublarının birgə yaşadığı, mədəniyyətlərin qovuşduğu müqəddəs məkan olması bu tədbirlərin əsas məzmunu, qayəsini, ana xəttini təşkil edib.

Rayonumuz da bu tədbirlərdən kənarda qalmayıb. Bununla əlaqədar burada da insanların maarifləndirilməsi, dövlət siyasətinin geniş şəkildə təbliğ olunması daim diqqət mərkəzində olub. Özü də bu tədbirlərin bir çoxu respublika əhəmiyyəti daşıyıb. Ölkənin ayrı-ayrı təşkilatlarının rayonumuzda təşkil etdikləri tədbirlərdə çoxlu sayda insanlar iştirak ediblər.

Bakı beynəlxalq tədbirlərin mərkəzinə çevrildi

Bu da dünyaya sülh çağırışları etmək, mesajlar vermək üçün bir vasitədir. Azərbaycan bu vasitələrdən də məharətlə istifadə edərək öz sözünü deyə bilir. Bu tədbirlərin arasında Beynəlxalq humanitar forumlar xüsusi önəm daşıyır. Dünyanın tanınmış siyasətçiləri, ictimai xadimləri, nobel mükafatları laureatları, tanınmış alimləri və digər görkəmli şəxsiyyətləri bu tədbirlər çərçivəsində Bakıda bir araya gələrək dünya ictimaiyyətini düşündürən, narahat edən bir çox məsələlərin, problemlərin müzakirəsində fəal iştirak ediblər, fikir söyləyiblər, təkliflərini irəli sürüblər, dünyaya sülh çağırışları ediblər. BMT-nin Sivilizasiyalararası Alyansının ölkəmizin paytaxtında keçirilən VII Qlobal Forumu, Dünya Xəbər Agentliklərinin V Konqresi və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının Bakı toplantısı da yaddaqalan, dünya əhəmiyyətli beynəlxalq tədbirlərdir.

Bununla yanaşı elmin, texnikanın son nailiyyətlərini özündə əks etdirən neft-qaz sənayesi və digər sahələr üzrə beynəlxalq sərgilərin Bakıda keçirilməsinin də öz yeri var. Bu sərgilərdə ölkəmiz öz qabaqcıl texnologiyalarını nümayiş etdirməklə yanaşı digər ölkələrlə iqtisadi əlaqələrini də möhkəmləndirir. Bir neçə gün bundan qabaq Bakı Ekspo Mərkəzində təşkil olunan informasiya və kommunikasiya texnologiyalarını özündə əks etdirən "Bakutel-2016" sərgisində biz bunu bir daha əyani şəkildə gördük. Belə Beynəlxalq tədbirlərin əhəmiyyəti bir də ondadır ki, xarici ölkələrin vətəndaşları respublikamızla, buradakı inkişafla, əldə olunan nailiyyətlərlə, xalqımızın qonaqpərvərliyi, milli adət-ənənələrimizlə, multikultural dəyərlərimizlə daha yaxından tanış olurlar.

2016 yeni islahatlar ili kimi yadda qaldı

Bunun da özünəməxsus ciddi səbəbləri var. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi, dünya miqyasında yaşanan iqtisadi böhran Azərbaycandan da yan ötə bilməzdi. Son vaxtlar respublikamızda qeyri-neft sektorunun inkişafının ön plana çəkilməsi, xüsusilə kənd təsərrüfatının inkişafına, yenidən qurulmasına önəm verilməsi bununla əlaqədardır. Xaricə yüksək keyfiyyətli məhsul ixrac etmək, idxalı hər vasitə ilə azaltmaq zamanın, dövrün tələbidir. Məhz bunu nəzərə alaraq dövlətimizin başçısı cənab İlham Əliyev yeni iqtisadi münasibətləri tənzimləyən, istehsalçılar üçün geniş imkanlar yaradan, daxili bazarın inkişafına müsbət təsir göstərəcək bir sıra sərəncamlar imzaladı, qərarlar qəbul etdi.

Görülən bu tədbirlərdən sonra iqtisadiyyatımızın ayrı-ayır sahələrində, xüsusilə kənd təsərrüfatında, pambıqçılıqda bir dirçəliş, oyanış yaranıb. Müstəqilliyimiz dövründə ilk dəfədir ki, rayonumuzda 1541 hektar sahədə pambıq əkilib, 1900 tondan çox "ağ qızıl" tədarük olunub. Gələn il bu rəqəm yəqin ki, bir neçə dəfə artacaqdır. İndi kənd əməkçiləri Neftçala üçün xarakterik olan əkinlərlə yanaşı, xarakterik olmayan digər əkinlər, istehsal sahələri barədə də düşünüb, tədbirlər görür, əlaqələr yaradırlar. Əkin sahələrinin genişləndirilməsi təkcə məhsul istehsalının çoxalmasına deyil, kənd əhalisinin məşğulluğunun artmasına da öz müsbət təsirini göstərir. Yeni əkin sahələrində çalışan adamlar dolanışıqlarını daha yaxşı təmin edə bilirlər. Növbəti illərdə bu özünü xüsusilə qabarıq şəkildə göstərəcəkdir.

İdman tariximizə yeni zəfərlər yazıldı

Yola salmaqda olduğumuz il idman uğurları ilə də yaddaqalan oldu. Əvvəlki illərdə də bu sahədə birbirindən parlaq qələbələr əldə edilmişdi. Əgər idmançılarımız London Yay Olimpiya Oyunlarından 10 medalla geri dönmüşdülərsə, ölkəmizdə ilk dəfə keçirilən Birinci Avropa Oyunlarında nəticələr xüsusilə parlaq olmuşdu. Həmin yarışlarda yüksək peşəkarlıq nümayiş etdirən həmyerlilərimiz 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa nail olmuşdular. Bu, doğrudan da böyük zəfər idi. İdmançılarımız bu böyük zəfərə heç də asanlıqla nail olmamışdılar. Dövlətin qayğısını, diqqətini həmişə yaxından hiss edən həmyerlilərimiz göstərilən etimadı layiqincə doğruldaraq Azərbaycan idmanının tarixinə şanlı qızıl səhifələr yazmağa nail olmuşdular.

Bu il isə bütün nəzərlər Braziliyanın Rio-de Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarına yönəlmişdi. Əvvəlkilərdən fərqli olaraq bu oyunlarda daha böyük heyətlə — 56 idmançı ilə iştirak edən komandamız zəfər estafetini bu dəfə də layiqincə davam etdirdi, bir-birindən parlaq qələbələr qazandı. 1 qızıl, 7 gümüş, 10 bürünc medala sahib olan Azərbaycan mükafatlarının sayına görə 207 iştirakçı və 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider olmağı bacardı.

Qələbənin ilk sevincini daddıq

2016-cı ilin aprelində xalqımız qələbənin ilk müjdəsinin sevincini daddı. Ordumuz nəyə qadir olduğunu açıq şəkildə ortaya qoydu. Düşmən isə xar oldu. Bir daha anladı ki, Azərbaycan Ordusu, Azərbaycan əsgəri işğal olunmuş torpaqlarını geri qaytarmağa qadirdir.

Əlbəttə, qələbə qurbansız olmur. Bu dəfə də belə oldu. Neçə-neçə igid əsgərimiz, zabitimiz qanlı döyüşlərdə həlak oldu. Həmin ağrılı günlərdə rayonumuza da şəhidlər gətirildi. Əvvəlcə Elimdar Səlimxan oğlu Səfərovu doğulduğu kənddə — Aşağı Qaramanlıda tapşırdıq müqəddəs Vətən torpağına. Sonra bu ağrı-acı Həsənabad qəsəbəsində yaşandı. Qəsəbədə boya-başa çatmış Samid Gülağa oğlu İmanov da kişi kimi döyüşərək qəhrəmancasına həlak olmuşdu. Elə buna görə də mayor Samid İmanov ölümündən sonra Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. Elimdar Səfərov isə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşdu. Torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən bütün Vətən oğulları bizim üçün əzizdir. İllər, on illər keçsə də, onlar daim böyük minnətdarlıq hissilə yad olunacaqlar. Həmyerlilərimiz Samid Gülağa oğlu İmanova və Elimdar Səlimxan oğlu Səfərova göstərilən ehtiram bunun əyani nümunəsidir.

"GÜNDOĞAR"

Rayonumuzda

Sənaye Məhəlləsi təntənəli açılışını gözləyir

Prezident İlham Əliyev bununla əlaqədar Neftçala Sənaye Məhəlləsinin yaradılması barədə 2 fevral 2015-ci il tarixli sərəncamını imzalamışdı. Onu da deyək ki, bu, respublikamızda ilk pilot layihə olduğundan və dövlət başçısı bu layihənin icrasını xüsusi nəzarətdə saxladığından məsuliyyət daha da artırdı.

Həmin vaxtdan başlayaraq rayonumuzda bu istiqamətdə geniş tədbirlər həyata keçirilməyə başlandı. Layihəni həyata keçirən "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə yanaşı rayon rəhbərliyi də bu işdə köməyini əsirgəmədi. Dövlət başçısının Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və sonrakı toplantılarda Neftçala Sənaye Məhəlləsində görülən işləri layiqincə dəyərləndirməsi də bununla bağlı idi.

Çəkilən zəhmət öz bəhrəsini verib. Bu yaxınlarda sənaye məhəlləsinin inzibati binasında məhəllənin mövcud və potensial rezidentləri ilə keçirilən görüş zamanı aydın oldu ki, burada sahibkarlıq fəaliyyəti üçün lazım olan bütün şərait yaradılıb. Bu barədə məlumat verən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bildirdi ki, artıq sahibkarlar Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərmək üçün layihələrini təqdim ediblər. Artıq həmin layihələrin çoxu qeydə də alınmışdır. Sözünə davam edən nazir müavini əlavə etdi ki, ümumi sahəsi 7800 kvadratmetr olan səkkiz istehsal təyinatlı modullaşdırılmış blok, 1200 kvadratmetr olan inzibati bina, texnki binalar, bütün infrastruktur sahibkarların istifadəsi üçün hazır vəziyyətdədir. İndi qalır məhəllənin özünün fəaliyyətə başlaması. Yəqin yaxın vaxtlarda onun təntənəli açılışının da şahidi olacağıq.

Avtomobil Zavodunun təməli qoyulub

Cari ildə Neftçala Sənaye Məhəlləsində daha bir möhtəşəm layihənin — respublikanın "Azevrocar" MMC şirkətinin İran-İslam Respublikasının "İran Khadro" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə avtomobil zavodunun təməli qoyuldu. Təməlqoyma mərasimində ölkəmizin iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının sənaye, mədən və ticarət naziri Məhəmmədrza Nemətzadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edirdi. Nazir Nemətzadənin məlumatından aydın oldu ki, istehsal gücü ildə 10000 ədəd avtomobil olacaq müəssisədə 300 yeni iş yerlərinin yaradılması nəzərdə tutulub. Layihənin ümumi smeta dəyəri 15 milyon ABŞ dollarıdır.

Bu, 2016-cı ilin rayonumuz üçün ən mühüm hadisələrindəndir. Neftçalada avtomobil zavodunun işə salınması, burada ilkin olaraq 300 yeni iş yerinin açılması həqiqətən sevindiricidir. Hələlik layihə kağız üzərində olsa da, onun gerçəkləşəcəyi, reallaşacağı gün heç də uzaqda deyil.

Xəstəxana kompleksində əsaslı təmir işləri yekunlaşır

İnsanın bütün uğurları sağlıqdan, sağlamlıqdan başlayır. İnsan sağlam olanda yüksək səviyyədə çalışa, fəaliyyət göstərə bilir. Elə buna görə də müntəzəm olaraq xəstəxanalara baş çəkir, həkimlərlə, tibb işçiləri ilə yaxın ünsiyyətdə, təmasda oluruq. Nəticə o vaxt yaxşı olur ki, xəstəxanada normal şərait olsun, həkimlər, mütəxəssislər ən müasir aparatlardan, diaqnostika vasitələrindən istifadə edə bilsinlər.

Çox təəssüf, indiyə kimi rayonumuzda vəziyyət belə olmayıb. Uzun illərdən bəri təmir edilməyən, şəraiti olmayan xəstəxanada xidməti yüksək səviyyədə qurmaq da çətin olub. Rayon sakinləri bir çox hallarda dəqiq diaqnoz, hərtərəfli müayinə üçün Bakı şəhərinə, qonşu rayonlara üz tutmağa məcbur olublar. Artıq buna son qoyulacaq. 2016-cı il həm də rayon mərkəzi xəstəxanasının əsaslı təmir olunduğu, tamamilə yenidən qurulduğu il kimi qalacaq yaddaşlarda.

Birgə səy nəticəsində artıq işlər tamamlanmaq üzrədir. Ən müasir avadanlıqlar, diaqnostika vasitələri ilə birlikdə xəstəxana kompleksi istifadəyə verildikdən sonra rayon əhalisinə göstərilən tibbi xidmətin səviyyəsi qat-qat yüksələcəkdir. Daha xəstələrin hərtərəfli müayinələri üçün ora-bura getmələrinə ehtiyac qalmayacaq. Müayinələri də burada aparılacaq, müalicələri də. Bu isə onları xeyli əlavə xərcdən xilas edəcək. Tamamilə yenidən qurularaq müasirləşən, işıqlandırılan, yaşıllaşdırılan xəstəxana kompleksi eyni zamanda şəhərimizə bir təzəlik gətirəcək, buralar daha gözəl və yaraşıqlı görünəcəkdir.

Yeni müasir binalar tikilir

Rayonumuzda ayrı-ayrı idarə və müəssisələr üçün müasir tələblərə cavab verən yeni inzibati binaların, xidmət obyektlərinin, fərdi yaşayış evlərinin istifadəyə verilməsi də ilin yadda qalan uğurlarındandır. Kənd təsərrüfatı idarəsi üçün inşa olunun ikimərtəbəli bina özünün memarlıq üslubu ilə xüsusilə fərqlənir. Burada işçilərin normal fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu rayon şöbəsinin bu günlərdə istifadəyə verilən inzibati binası da ulu öndər Heydər Əliyevin adını daşıyan prospektə diqqəti cəlb edən müasir tikililərdəndir.

Dünənə qədər şəhərimizin mərkəzində fəaliyyət göstərən "Fəridə" şadlıq sarayını da indi tanımaq olmur. Sökülərək tamamilə yenidən qurulan, müasirləşdirilən bu obyektdə indi tamamlama işləri görülür. Layihədə nəzərdə tutulan işlər başa çatdırıldıqdan sonra birincilik qazanan bu şadlıq sarayı şəhərimizə yaraşıq verəcəkdir. Xoş sözləri əsaslı təmirdən sonra xeyli dərəcədə gözəlləşən, müasirləşən "Vağzalı" restoranı haqqında da söyləmək olar. İnsanlar iaşə xidmətinə olan ehtiyaclarını ödəməklə yanaşı burada toy mərasimləri də keçirə biləcəklər.

"GÜNDOĞAR"

Dövlət Miqrasiya Xidməti Neftçalada

Dövlət Miqrasiya Xidməti Şirvan regional miqrasiya idarəsinin xidmət ərazisi olan Neftçala şəhərində noyabrın 24-də əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ictimaiyyət və mətbuat nümayəndələri üçün "Açıq qapı günü" təşkil olunub. Həmin gün rayonda əcnəbi və vətəndaşlığı olmayan şəxslər, vətəndaşlar, aidiyyəti dövlət qurumları, ictimai təşkilatlar, işəgötürənlər,

sahibkarların nümayəndələrinin iştirakı ilə maarifləndirmə tədbiri də keçirilib.

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilov açaraq qarşıda duran vəzifələrdən danışıb.

Sonra Dövlət Miqrasiya Xidməti Şirvan Regional Miqrasiya İdarəsinin rəisi Mirsamir Seyidovun məruzəsi dinlənilib.

Məruzə ətrafında müzakirələrdə Xidmətin Miqrasiya Siyasəti və Hüquqi Təminat Baş İdarəsinin məsul əməkdaşı Emin Allahverdiyevin, Təşkilat Nəzarət Baş İdarəsinin məsul əməkdaşı Sahil Fətəliyevin, Miqrasiya Proseslərinin Təhlili və İnformasiya Təminatı Baş İdarəsinin məsul əməkdaşı Həsən Həsənovun, Vətəndaşlıq Məsələləri Baş İdarəsinin məsul əməkdaşı Sahib İsmayılovun, İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini Füzuli İsmayılovun çıxışları dinlənilib.

Bununla yanaşı "Açıq qapı günü"ndə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin ayrı-ayrı hissələri şərh olunub. Məcəllədə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin, onları qəbul edən tərəfin və yaxud icazəsiz olaraq haqqı ödənilən əmək fəaliyyətinə cəlb edən hüquqi və ya fiziki şəxslərin törətdiyi inzibati qanun pozuntusuna görə yaranmış məsuliyyətin hüdudlarının konkretləşdirildiyi bildirilib. Bu barədə izahedici söhbət aparılıb.

Həmçinin sahibkarlıq fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli fərmanının icrasını təmin etmək məqsədilə Dövlət Miqrasiya Xidməti rəisinin əmri ilə yaradılan Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurasının fəaliyyəti barədə də məlumat verilib.

Tədbirlərdə o da vurğulanıb ki, Azərbaycan Prezidenti vətəndaşların hüquq və azadlıqlarının daha yaxşı təmin edilməsinə, insanların arzu və istəklərini, eyni zamanda cəmiyyətin problemlərini özündə əks etdirən vətəndaş müraciətlərinə diqqətin artırılmasına böyük əhəmiyyət verir. Bu baxımdan "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun əhəmiyyəti xüsusi qeyd edilib.

Sonra "Dövlət Miqrasiya Xidmətinin göstərdiyi elektron xidmətlərin istifadə qaydaları"nın əyani təqdimatı keçirilib. Bildirilib ki, Xidmətdə informasiya-kommunikasiya texnologiyaları strategiyasının icrası və inkişafı, yeni hesabat altsistemi proqram təminatının hazırlanması, informasiya sistemlərinin yaradılması məqsədilə kompleks tədbirlər davam etdirilir. Qurumun elektron hökumət portalına qoşulmuş 11 elektron xidmətindən istifadə qaydaları əyani şəkildə izah olunub. Hər bir xidmətin növü üzrə DMX tərəfindən hazırlanmış və müvafiq elektron səhifələrdə yerləşdirilmiş "video təlimat"ların nümayişi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Görüşlərin sonunda verilən suallar cavablandırılıb və təqdimatla bağlı fikir mübadiləsi aparılıb. Müraciət edənlər səyyar xidmətin təşkilinə görə minnətdarlıqlarını bildiriblər.

Əlamətdar gündə yanğınsöndürənlər də sevindilər

Yanğından mühafizə sistemləri çox mühüm qurumdur. Məhz bu qurumların köməyi ilə baş verən yanğın hadisələrinin qarşısı operativ şəkildə alınır, dövlətin və insanların əmlaklarının daha geniş miqyasda məhv olmasına yol verilmir. Yanğınsöndürənlərin gördükləri işlər və həyata keçirdikləri profilaktiki tədbirlər olmasaydı, şübhəsiz, biz daha dəhşətli hadisələrlə qarşılaşa bilərdik, yanğınların miqyası daha geniş olardı. Adi qığılcımdan, kiçik bir ehtiyatsızlıqdan elə yanğın hadisələri baş verir ki, onların söndürülməsinə çox böyük qüvvələr cəlb olunur. Neçə-neçə yanğınsöndürən fövqəladə vəziyyətdə ölümlə də üz-üzə qalır, həyatını belə itirir. Respublikamızda, ayrı-ayrı ölkələrdə baş verən hadisələr bunu əyani şəkildə göstərir. Real həyatda və televiziya ekranlarında belə hadisələri dəfələrlə görmüşük. Yəqin həyatımız bu cür hadisələrdən bundan sonra da sığortalanmayıb. Yanğınlar hər an, hər zaman baş verdiyindən yanğınsöndürənlər də öz işlərində həmişə sərvaxtdırlar, peşəkarlıqlarını durmadan artırırlar ki, ən çətin vaxtda belə düzgün qərar çıxara bilsinlər, baş verə biləcək bədbəxt hadisələrin qarşısını vaxtında alsınlar.

Əvvəllər respublika Daxili İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərən bu qurumlar Fövqəladə Hallar Nazirliyinin yaradılmasından sonra onların tabeliyinə verilmişdir. Həmin vaxtdan başlayaraq nazirliyin digər strukturları kimi yanğından mühafizə bölmələri də on bir illik tarixi inkişaf yolu keçmiş, daha da möhkəmlənmişdir. İndi onların lazım olan texnikalarla, maşın-mexanizmlərlə, zəruri avadanlıqlarla təchizatı, peşəkarlıqları əvvəlki illərlə müqayisədə daha yüksəkdir.

Bunu rayonumuzdakı yanğından mühafizə hissəsində də əyani şəkildə görmək olar. Son illər hər cür şəraiti olan yeni inzibati binanın istifadəyə verilməsi, müasir avadanlıqların alınması yanğınlara qarşı mübarizə tədbirlərini daha da genişləndirməyə imkan verir. İl ərzində bir sıra hadisələrin qarşısının vaxtında alınması, yanğınların genişlənməsinə yol verilməməsi də bununla bağlıdır.

Dekabrın 16-sı — Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günü yanğınsöndürənlər üçün də əzizdir. Həmin gün onlar üçün əlamətdar olduğundan rayon yanğından mühafizə hissəsinin kollektivi də xoş hisslərlə yaşayır. Bu il də belə idi. Hissədə əsl bayram əhvali-ruhiyyəsi vardı. Xoş duyğularla yaşayan yanğınsöndürənlər bir-birlərini təbrik edirdilər. Biz də hissənin rəisi İkram Səlimova, əməkdaşlara öz arzularımızı bildirdik, onlara yanğınsız həyat arzuladıq. Hissə rəisi görülən işlərdən, həyata keçirilən tədbirlərdən ürək dolusu danışdı, bundan sonra da sərvaxt olacaqlarını bildirdi.

Bayram proqramı geniş olsa da hissənin şəxsi heyəti ilk olaraq ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdü. Mərasimdə ayrı-ayrı idarə və müəssisələrin rəhbərləri, ictimaiyyətin nümayəndələri də iştirak edirdilər.

Mərasim başa çatdıqdan sonra tədbir hissədə davam etdirildi.

Bol məhsul gərgin zəhmət tələb edir

Qəzetimizin ötən sayında rayonumuzda pambıq yığımının, taxıl əkininin, yem tədarükünün gedişi barədə məlumat vermişdik. Qeyd etmişdik ki, oktyabr ayında havaların son dərəcə əlverişsiz, yağışlı-yağmurlu keçməsinə baxmayaraq fermerlər, torpaq mülkiyyətçiləri ruhdan düşmürlər. Əlverişli keçən hər gündən, hər saatdan səmərəli istifadə etməklə bu işləri uğurla davam etdirirlər. Noyabr ayında havalar nisbətən mülayimləşdiyindən, intensiv yağan yağışlar səngidiyindən tarlalarda işlər daha da sürətləndi. Kənd əməkçiləri məhsul yığımını, tədarükünü davam etdirməklə yanaşı, gələn ilin bol məhsulunun əsasını da indidən qoymağa, bununla əlaqədar tədbirlər həyata keçirməyə başladılar.

Pambıqçılıqda

işlər xüsusilə gərgin idi. İlk növbədə böyük zəhmət, vəsait hesabına yetişdirilən məhsulu son qramınadək toplamaq lazım gəlirdi. Bunun üçün bütün qüvvələr səfərbər olunmuşdu. Rayon rəhbərliyinin gördüyü tədbirlər nəticəsində yığımda iştirak edənlərin sayı xeyli dərəcədə artmışdı. Aparılan izahat işlərindən sonra çoxları könüllü gəlirdilər pambıqçıların köməyinə.

Rayon mənzil-kommunal təsərrüfatı istehsalat birliyi işçilərinin bu işdəki fəallıqlarını xüsusi qeyd etmək lazımdır. Küçələrimizi silib-süpürən, ətrafda səliqə-sahman yaradan bu zəhmətkeş, əməksevər insanlar çətin vaxtda pambıqçılardan da köməklərini əsirgəmirdilər. Hər gün xeyli miqdarda məhsul toplamağa nail olurdular. Fermerlər, torpaq mülkiyyətçiləri həmin çətin günlərdə onların yanında olan mərkəzi xəstəxananın, təhsil, mədəniyyət və turizm şöbələrinin texniki işçilərindən də razılıqla söhbət açırlar. Yığımın daha yaxşı təşkil olunduğu Xolqarabucaq, Xolqaraqaşlı, Aşağı Surra, Aşağı Qaramanlı, Cəngən, Yuxarı Qaramanlı inzibati ərazilərindəki intensivlikdə bu ərazilərdəki nümayəndələrin zəhmət payları böyükdür. Ümumilikdə indiyə qədər rayon üzrə 1900 tondan çox pambıq toplanmışdır ki, bu da çəkilən birgə zəhmətin bəhrəsidir.

Pambıqçılıq sahəsində gələn ilki vəzifələr xüsusilə böyükdür. Əgər bu il 1541 hektar sahədə əkin aparılmışdısa gələn il bu rəqəm 10100 hektar olacaqdır. Buna müvafiq olaraq, şübhəsiz, pambıq istehsalı da cari illə müqayisədə dəfələrlə artacaqdır. Amma bir şərtlə ki, bütün işlər keyfiyyətlə aparılsın, torpaq əkinə vaxtında hazırlansın. Bunun üçün ilk növbədə gələn il pambıq əkməyi üzərinə götürən torpaq mülkiyyətçiləri, fermerlərlə müqavilələr bağlanır. Torpağın vaxtında şumlanması, zərərli duzlardan yuyulub təmizlənməsi, arat olunması və digər aqrotexniki tədbirlərin həyata keçirilməsi də yüksək məhsuldarlığın əldə olunması üçün vacib şərtlərdir. Pambıqçılar rayon kənd təsərrüfatı idarəsi mütəxəssislərinin rəhbərliyi altında lazım olan bu tədbirləri vaxtlı-vaxtında həyata keçirirlər.

Taxılçılıqda

da qayğılar başdan aşır. Havaların yağışlı-yağmurlu, əlverişsiz keçməsi bu sahədə çalışan fermerlərin işini də xeyli dərəcədə çətinləşdirmişdir. Belə çətin şəraitdə onlar da taxıl əkinini vaxtında həyata keçirə bilmirdilər. Amma ruhdan da düşmürdülər. Torpaq mülkiyyətçiləri, fermerlər əlverişli keçən hər gündən, hər saatdan səmərəli istifadə etməyə çalışırdılar. Çöllərdən traktor səsi kəsilmirdi. Hamı səy göstərirdi ki, gələn ilin bol məhsulunun təməli indidən möhkəm qoyulsun.



Rayon kənd təsərrüfatı idarəsindən aldığımız məlumatdan aydın oldu ki, 47515 hektar sahəyə toxum səpilmişdir. Bunun 41686 hektarı arpa, 5829 hektarı buğdadır. Əkin zamanı tarlalarda işləyən 176 şum traktorunun, 84 səpin aqreqatının, malaların və digər texnika vasitələrinin imkanlarından məksimum səmərəliliklə istifadə olunmuşdur. Əsasən "Baharlı", "Qarabağ-22" arpa, "Taleh-38", "Qaraqılçıq-1" buğda sortlarından istifadə edən fermerlər səpinlə yanaşı becərmə tədbirlərini də daim diqqətdə saxlayırlar. Əlibala Səlimov, Namiq Bağırov, Rahib Abbasov, Təvəkkül Məmmədov kimi təcrübəli təsərrüfatçıların bu sahədəki işləri xüsusilə sevindiricidir. Onlar aqrotexniki tədbirləri vaxtlı-vaxtında həyata keçirməklə gələn il də yüksək nəticələr əldə etmək əzmindədirlər.

"GÜNDOĞAR"

Rayonun əmtəə bazarında vəziyyət necədir?

Rayonun iqtisadiyyatında dinamik inkişaf əvvəlki ildə olduğu kimi 2016-cı ilin yanvar-sentyabr aylarında da davam etmiş, digər fəaliyyət sahələri kimi ticarət sektoru da sabit inkişaf etməkdə davam etmişdir. Pərakəndə ticarət dövriyyəsinin inkişafı son illərdə olduğu kimi, 2016- cı ilin müvafiq dövründə də ticarətlə məşğul olan özəl müəssisələrin və xüsusilə də fiziki şəxslərin fəaliyyətinin daha da genişlənməsi istehlak mallarının əksər hissəsinin ticarətin bu növləri vasitəsilə əhaliyə satışına öz müsbət təsirini göstərmişdir.

Cari ilin əvvəlindən pərakəndə ticarət şəbəkələrindən 136120,0 min manatlıq və ya 2015-ci ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 0,5 faiz çox müxtəlif növ istehlak malları satılmışdır.

2016-cı il oktyabr ayının 1-i vəziyyətinə pərakəndə ticarət şəbəkələrində 27727,3 min manat həcmində əmtəə qalığı olmuşdur ki, bunun da 43,3 min manatı və ya 0,2 faizi hüquqi şəxs statuslu müssisələrdə, 4180,0 min manatı və ya 15,1 faizi bazar və yarmarkalarda fəaliyyət göstərən fiziki şəxslərdə, 23504,0 min manatı və ya 84,7 faizi isə digər fiziki şəxslərdə mövcud olmuşdur.

2016-cı ilin yanvar-sentyabr aylarında rayon üzrə pərakəndə ticarət dövriyyəsi, ölkə üzrə pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində xüsusi çəkisi 0,65, aran iqtisadi rayonlar üzrə isə 4,66 faiz təşkil etmişdir. Ticarət sahəsində əldə olunmuş nailiyyətlər birbaşa əhalinin sosial rifahı, gəlirlərinin artması ilə bağlıdır.

Əhalinin həyat səviyyəsinin getdikcə yüksəlməsi pərakəndə ticarət dövriyyəsinin strukturuna da öz müsbət təsirini göstərir. Ticarət dövriyyəsində əhalinin pul gəlirlərinin artması mühüm göstəricilərindən sayılan qeyri-ərzaq mallarının payının artması ilə müşahidə olunur. 2016-cı ilin yanvar- sentyabr aylarında pərakəndə ticarət şəbəkələrindən əhaliyə satılmış ərzaq məhsullarının həcmi müqayisəli qiymətlərlə 0,4 faiz artaraq 72824,0 min manat, qeyri-ərzaq mallarının həcmi isə 0,3 faiz artaraq 63296,0 min manat olmuşdur.

2016-cı ilin yanvar-sentyabr aylarında ümumi əmtəə dövriyyəsinin həcmində ərzaq mallarından "ətin pərakəndə satışı" 7,1 faiz , "unun pərakəndə satışı" 7,7 faiz, "araq və araq məmulatlarının pərakəndə satışı" 5,0 faiz, "bitki yağının pərakəndə satışı" 6,3 faiz, "kofe, çay, kakao və ədviyyatın pərakəndə satışı" 5,6 faiz, "qəndin pərakəndə satışı" 6,5 faiz, "tütün məmulatlarının pərakəndə satışı" 4,5 faiz, qeyri-ərzaq mallarından isə "zərgərlik məmulatlarının pərakəndə satışı" 8,1 faiz, "paltarın və alt geyimlərinin pərakəndə satışı" 6,5 faiz, "sanitariya-texniki avadanlıqların pərakəndə satışı" 6,2 faiz, "kosmetika məmulatının və tualet ləvazimatlarının pərakəndə satışı" 5,1 faiz, "boya, lak və emalın pərakəndə satışı" 4,1 faiz, "soyuducuların pərakəndə satışı" 3,6 faiz, "ayaqqabının pərakəndə satışı" 3,4 faiz, "metal qab-qacaqların pərakəndə satışı" isə 2,7 faiz təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin həcmində ərzaq və qeyri-ərzaq mallarının xüsusi çəkisi müvafiq olaraq 53,5 faiz və 46,5 faiz təşkil etmişdir.

Müqayisə üçün bu göstərici ötən ilin müvafiq dövründə 54,1 faiz və 45,9 faiz təşkil etmişdir. Qeyri-ərzaq mallarının xüsusi çəkisi əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,6 faiz artmışdır. 2016-cı ilin yanvar-sentyabr aylarında rayonda bir istehlakçı pərakəndə ticarət şəbəkələrindən orta hesabla ayda 177,2 manat və ya ötən ilin eyni dövrü ilə müqayisədə 21,0 manat çox müxtəlif çeşidli istehlak malları almış və hər bir rayon sakini orta hesabla ayda 94,8 manatlıq ərzaq, 82,4 manatlıq isə qeyri - ərzaq malları almışdır.

Rayonun pərakəndə ticarət bazarında fiziki şəxslərin fəaliyyəti getdikcə daha da genişlənir və istehlakçıların alıcılıq tələbatının ödənilməsində ticarətlə məşğul olan fiziki şəxslərin aparıcı rolu daha da yüksəlir.

T.MƏNƏFOVA,
rayon statistika idarəsinin
rəis müavini

Qanlı Yanvara gedən yol

1990-cı ilin qara yanvarı heç də birdən-birə baş verməmişdi, bu qanlı hadisə böyük bir yol keçib gəlmişdi. 1988-ci ilin əvvəllərində respublikanın ictimai-siyasi həyatında kəskin dəyişikliklər baş verdi. Sabiq sovet lideri Mixail Qorbaçovun yenidənqurma və aşkarlıq siyasəti getdikcə qızışaraq antidemokratik xarakter almağa başladı. Bu çirkin siyasətdən məharətlə istifadə edən ermənilər 88-ci ilin əvvəllərində Yerevanda teatr meydanına yığışaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edən çıxışlara başladılar. Zore Balayan, Aqambekyan, Şahnazaryan kimi erməni liderləri onların baş ideoloqları oldular. Beləliklə, vəziyyət getdikcə kəskinləşməyə başladı.

Azərbaycan xalqı da özünün haqq səsini qaldırdı, özünün hüquqları, ölkənin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxdı. 1988-ci il noyabrın 17-də adamlar Azadlıq Meydanına toplaşdılar. Xalq bildirdi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi, əzəli və əbədi torpağıdır. Bundan sonra əsl kütləvi hərəkat başladı.

1988-1989-cu illərdə çıxışlar Azərbaycanda ən yüksək həddə çatmışdı. Ölkəmizin hər yerində Azərbaycanın üçrəngli bayrağı dalğalanırdı. Həmin dövrdə ümummilli lider Heydər Əliyev Qorbaçovun yeritdiyi səhv siyasi xəttə etiraz əlaməti olaraq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi. Respublikada başlanmış hərəkatda çoxlu sayda naşı, qəsdən hərəkatın içərisinə yeridilən xəyanətkar adamlar var idi, onlar xalq hərəkatının lazımi qaydada aparılmasına imkan vermirdilər. O vaxtkı respublika rəhbərliyi də xalqın taleyinə biganə idi, baş verən hadisələri düzgün məcraya yönəltməyi bacarmırdı.

1990-cı ilin əvvəllərində respublikada hərəkat daha da coşdu. Xalq Moskvaya qəti etirazını bildirir, ölkə rəhbərliyinin istefaya getməsini tələb edirdi. Azərbaycandakı xalq hərəkatı o qədər güclənmişdi ki, SSRİ kimi nəhəng bir dövləti lərzəyə gətirmişdi. Buna görə də Moskva Azərbaycan xalqına qarşı qanlı cinayət planı hazırlamağa başladı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 19-dan 20-nə keçən gecə saat 00:00-da Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Ancaq qırğın törədib əhalinin gözünün odunu almaq üçün bu fərman vaxtında elan edilmədi, xalqdan gizlədildi. Bu plan qabaqcadan nəzərdə tutulduğundan, hələ bundan 4-5 saat əvvəl, yanvarın 19-da axşam saat 20-yə qalmış Azərbaycan dövlət televiziyasının enerji bloku partladılmışdı. SSRİ Ali Soveti Rəyasət Heyəti Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi barədə fərmanı imzaladıqdan dərhal sonra, yanvarın 20-si gecəsi sovet ordusu şəhərə hücuma keçdi. Bakıda və onun ətrafında 131 nəfər öldürüldü, 744 nəfər yaralandı, neçəsi itkin düşdü. 400 nəfər adam həbs olunaraq Şüvəlan təcridxanasına salındı, Rusiyanın həbsxanalarına göndərildi. Onların arasında Azərbaycanın görkəmli elm, mədəniyyət, incəsənət xadimləri, böyük ziyalılar, yazıçılar, şairlər var idi. Bu hadisənin ertəsi günündən etibarən qanlı hadisəyə etiraz əlaməti olaraq respublikanın hər yerində 40 günlük matəm tətili başlandı. Sosioloqların sorğusuna görə Azərbaycan xalqı 90-cı ilin qəhrəman xalqı elan olunmuşdu.

Azərbaycanı bütün o qovğalardan, qanlı qırğınlardan məhz ümummilli lider möhtərəm Heydər Əliyev xilas etdi, məhz bu böyük şəxsiyyət həyatı üçün böyük təhlükəyə baxmayaraq qanlı hadisənin ertəsi günü Moskvada Azərbaycan nümayəndəliyinə gələrək baş vermiş hadisə barədə dünyanı xəbərdar etdi. Xalqın sahibi, başçısı olmaq da elə bu deməkdir. Ümummilli lider Azərbaycan xalqının pis, ağır günlərində də, xoş, yaxşı günlərində də həmişə onun yanında olmuş, azərbaycanlı olması ilə həmişə fəxr etmiş, mənsub olduğu xalqı ilə bir sevinmiş, bir kədərlənmişdir. Xalq da bu dahi insanın işıqlı ruhunu daim sevindirmiş, şad etmişdir.

İ.ZEYNALOV,
Azərbaycan Yazıçılar
Birliyinin üzvü

Eyyub Bəşirov – 90: KÖNÜLLƏRİ NURLANDIRAN İNSAN

Akademik Eyyub Balaməmməd oğlu Bəşirovun həyat və ömür salnamsəinin doxsan illik parlaq səhifələrini vərəqlədikcə onun keçmiş olduğu uşaqlıq, gənclik və ahıllaşma dövrlərinin birbirindən nə qədər fərqli xüsusiyyətlərlə inkişaf etməyinin şahidi oluruq. Bu bənzərsiz ömür sahibinin uşaqlıq illəri çətin və əzablı, gənclik çağları möhtəşəm və coşqun, müdriklik məqamları isə ağıl və zəka nuru ilə haşiyələnən maraqlı xatirə izlərini özündə ehtiva edir.

1926-cı ilin sazaqlı bir qış günündə göz açdığı Muğan elatının Xolqarabucaq kənd-kəsəyinin ərəblər məhəlləsində Balaməmməd kişinin ocağında bir şadyanalıq idi. Bütün el-oba onu bu münasibətlə muştuluqlamağa, gözaydınlığına gəlmişdi. O illərin ağır və möhnətli çağlarında kənd əhli nə qədər iztirablı günlər yaşasa da özlərinə munis bildikləri bu müqəddəs ocağın halallıq təşnəsindən, inanc və inam qüdrətindən xeyir əməllər tapmaq arzusu ilə bu ailəyə mütəmadi olaraq pənah gətirirdilər. Sözün əsl mənasında insanlara qardaş və dost olmaq amalı bu ailənin qəlbində daima çıraq yandıran bir məşəli xatırladırdı. Odur ki, valideynlərindən əxz etdiyi nurlu və alicənab niyyətlər həyat və yaradıcılıq yolunun sonrakı mərhələlərində ona mənəvi dayaq, xeyirxah töhfə oldu.

Akademik Eyyub Bəşirovla yaxından təmas saxlamaq insana fərəh və sevinc nuru bəxş edir. O, tərəf müqabilini özünün şaqraq dolu xoş gülüşü, şən əhval yaradan ümidli təsəllisi, həlim və yeri gəldikcə zabitəli baxışı ilə ovsunlamağı bacaran maraqlı şəxsiyyətdir. Hətta, səbəb olmadan belə, onunla həmsöhbət olmağın arzusunda olanlar da təsdiq edir ki, o, xoşbəxt insandır, deyib-güləndir, çöhrəsində daima xoş təbəssüm olur. Onun elm və təhsil dünyasına qədəm qoyması tarixi də çox maraqlı və ibrətamiz həyat lövhələri ilə xarakterizə olunur.

Nə qədər təəccüblü görünsə də ailələri onu həmişə müəllim qiyafəsində görmək istəmişlər. O vaxtlar belə də oldu. Gənclik yaşının təravətli çağlarında müəllim peşəsini özünün ilkin sənət yolu bilən Eyyub Bəşirov bu münasibətlə əvvəlcə müəllim statusu ilə məktəb bitirib, öz doğma kəndlərinin böyüyən nəsli üçün maarif işığı yandırdı. Çox gözəl müəllim, qayğıkeş pedaqoq olmaq şərəfi onun gələcək yaradıcı ömrünə çıraq tutdu. Bir müddət keçdikdən sonra o, həyatını birmənalı olaraq elm və təhsil yolunda inkişafa sərf etdi, ali təhsilini həm doğma vətənində, həm də ondan kənar qərib bir məmləkətdə davam etdirdi. Zəngin təhsil yolu-gələcək elmi addımları üçün təməl rolu oynadı.

Nəhayət, ürəyindən keçən arzuları gerçəkləşdi. Doğmalarının xeyir-duası ilə o, ali təhsilini başa vurub, doğma vətəninə - Azərbaycana döndü. Yüksək səviyyəli kənd təsərrüfatı mütəxəssisi olmaq meracı ilə bütün çətinlikləri arxada qoydu, ağır sınaqlardan uğurla keçərək zoobaytarlıq sahəsində tezliklə məşhurlaşmağa başladı. Onun elm və təhsil dolaylarındakı keçmiş fəaliyyətini belə ümumiləşdirmək olar:

Eyyub Balaməmməd oğlu Bəşirov 1926-cı il dekabrın 20-də Neftçala rayonunun Xolqarabucaq kəndində anadan olub. 1942-ci ildə kənddəki orta məktəbin 9-cu sinfini bitirib. Bir müddət təsərrüfatda işləyib. 1943-cü ildə Salyan Pedaqoji Texnikumunu başa vuraraq 1945-ci ilin sentyabrına kimi Xoltəzəkənd və Xolqarabucaq kənd məktəblərində ibtidai siniflər üzrə müəllimlik edib.



Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun zootexnik fakültəsinə qəbul olunub. 1947-ci ildə ikinci kursu başa vurduqdan sonra, əlaçı tələbə kimi, akademik K.A.Timiryazev adına Moskva Dövlət Kənd Təsərrüfatı Akademiyasının zootexnika fakültəsinin üçüncü kursuna köçürülüb.

1950-ci ildə akademiyanı bitirərək alim zootexnik ixtisasına yiyələnən Eyyub Bəşirov təyinatla Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutuna işə göndərilib, bir müddət institutun qoyunçuluq şöbəsində kiçik elmi işçi, icraçı vəzifəsində çalışıb. 1951-ci ildə Moskvada, Ümumittifaq Heyvandarlıq İnstitutunun aspiranturasına qəbul olunub. 1954-cü ildə aspiranturanı bitirib, akademik V.K.Milovanovun rəhbərliyi ilə "Azərbaycan camışının çoxalmasının bioloji məsələləri" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək biologiya elmləri namizədi elmi dərəcəsi alıb.

O vaxtdan başlayaraq hörmətli alimimiz uzun müddət ərzində Azərbaycanın aqrar elmi və təsərrüfatı sahələrində səmərəli çalışaraq, tək ölkəmizin deyil, Çili, Əlcəzair, Fransa, Əfqanıstan kimi bir çox ölkələrin heyvandarlıq, süni mayalandırma, damazlıq, döllük sistemlərinin yaradılmasında, inkişaf etdirilməsində müstəsna xidmətlər göstərmişdir.

Eyyub Bəşirov 3 monoqrafiyanın, 4 təlimatın, 7 kitab və dərsliklərin, 700-dən çox elmi məqalələrin müəllifidir. 2004-cü il mart ayının 24-də Rusiya Beynəlxalq Keyfiyyət Problemləri Akademiyasında akademik V.K.Milavanov və professor İ.İ.Sakalovskayanın 100 illik yubileyləri münasibəti ilə keçirilən beynəlxalq elmi konfransda Eyyub Bəşirov "Süni mayalanmanın metod və texnologiyası, Azərbaycanda heyvandarlığın tərəqqisi" mövzusunda elmi məruzə ilə çıxış edir və məruzə birinci yeri tutur. Buna görə də Rusiya Ali Attestasiya Komissiyası ona biologiya elmləri doktoru elmi dərəcəsi verir. Rusiya Federasiyası Beynəlxalq Keyfiyyət Problemləri Akademiyası isə onu özünün həqiqi üzvü, akademiki seçir.

Hazırda Eyyub Bəşirov respublika Heyvandarlıq Cəmiyyəti İctimai Birliyinin (Assossiasiyasının) sədridir. Aqrar sahənin inkişafındakı xidmətlərinə görə "Şərəf nişanı" ordeninə, respublika Ali Sovetinin Fəxri fərmanına və bir sıra medallara layiq görülmüş, damazlıq işinin təşkilinə və bu sahədəki elmi nailiyyətlərinə görə İtaliyada beşinci Dünya bioloq alimlərinin və Moskvada Qarşılıqlı İqtisadi Yardım Şurası ölkələrinin beynəlxalq elmi simpoziumlarının yubiley medalları və mükafatları ilə təltif edilmişdir. 1997-ci ildə Beynəlxalq Enerji-İnformasiya Elmlər Akademiyasının, 2004-cü ildə "Vektor" Beynəlxalq Elmi Mərkəzinin "XXI əsrin tanınmış alimi" diplomuna layiq görülən Eyyub Bəşirov Rusiya Keyfiyyət Problemləri Akademiyasının həqiqi üzvü seçilmişdir. O, rus, fransız, ərəb, fars və ispan dillərini bilir. Ümumilikdə 125 nəşr edilmiş elmi külliyyatın müəllifi olaraq yaradıcı fəaliyyətini bu gün də uğurla davam etdirir. Dünyanın bir sıra dillərinə əsərləri tərcümə edilmiş və elmi ideyalarından istifadə olunur. O, dünya şöhrətli alim olaraq, XX və XXI əsrin ilk qərinəsində aqrar elmi sahəsində yülsək nailiyyətlər əldə etmiş, bu sahədə zəngin nəzəri-təcrübi əsasları olan elmi məktəb yaratmışdır.

Onun elmi-yaradıcı kredosunun əsasını təşkil edən Azərbaycanda heyvandarlığın inkişaf perspektivlərinə aid fundamental tədqiqatları bu strateji sahənin başlıca vəzifələrinin, əməli problemlərinin həllində müstəsna rol oynamış, dünya elminə uğurlu töhfələr vermişdir. Öz yaradıcılığında heyvandarlıq elminin bütün sahələrini dərindən öyrənsə də, camışçılıq sahəsinin tədqiqi, araşdırılması onun bu işdə ən novator ideyalarının ana xəttini təşkil etmişdir. Onun camışçılıq təsərrüfatının intensivləşdirilməsinə aid nəzəriyyələri bu sahədə ixtisaslaşan tələbələr və müəllimlər üçün zəngin mənbədir. Xüsusən son illərdə işıq üzü görmüş "Azərbaycanda damazlıq heyvanlarının biologiyası və yetişdirilməsi" (2005), və "Azərbaycanda heyvandarlığın inkişafının elmi əsasları" (2011) monoqrafiyaları ölkəmizin kompleks heyvandarlıq coğrafiyasının təşəkkül və inkişafı üçün çox əlamətdar hadisə sayıla bilər.

Bu sahədə olan bütün uğurlarını o, öz fitrətindən gələn istedad və zəhmət nuru ilə hasil etmiş, yaradıcılıq fəaliyyətinin zənginləşməsində sevimli və unudulmaz müəllimlərinin əməyindən, tövsiyələrindən ağıl və zəka gücü ilə maariflənmişdir.

Akademik Firuz Əli oğlu Məlikovun, akademik Viktor Konstantinoviç Milovanovun, professor Ağaxan Ələsgər oğlu Ağabəylinin, professor İrina İvanovna Sokolovskayanın elmi-didaktik nəzəriyyələrini dərindən mənimsəyən alim indi özü bu sahədə digərlərinə yardımçı olur, kənd təsərrüfatının aqrarsənaye təməli üzərində formalaşdırılması istiqamətində aparılan tədqiqatlara rəhbərlik edir. Yaradıcılıq yoluna yaxşı bələd olduğum respublikanın bir çox görkəmli mütəxəssislərinin, o cümlədən kənd təsərrüfatı üzrə fəlsəfə doktoru, əmək veteranı Rafael Bəşirlinin, biologiya üzrə fəlsəfə doktoru, respublika Camışçılıq Cəmyyətinin prezidenti Akif Fərəcovun, biologiya elmləri namizədi, respublika Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun elmi kadr kimi püxtələşməsində bu tanınmış pedaqoq alimin müstəsna əməyi olmuşdur.

Onun həmkarları arasındakı populyarlıq səviyyəsi gözəl ailə başçısı nüfuzu ilə də səciyyələnir. Üç övlad, doqquz nəvə və bir nəticə sahibi kimi böyük bir ailə ocağının səadət dolu günüzəranını rövnəqləndirmək mehri onun həyatının mənasını təşkil edir. Eyyub müəllimin gəncləri ailə səadətinə qovuşdurmaq yolunda ağsaqqal öyüd-nəsihətləri neçə-neçə böyüyən nəslə qol-qanad vermiş, onlara örnək, nümunə olmuşdur.

Ailədə, istehsalatda, ictimai qurumlarda həm gözəl valideyn, həm kamil mütəxəssis, həm də yüksək təşkilatçılıq manerası olan akademik Eyyub Balaməmməd oğlu Bəşirovun ideya-mənəvi irsi, tutumlu fəaliyyəti ümumxalq və ümumdövlət səviyyəsində həmişə öz dəyərini almışdır. O, xalqın ləyaqətli övladı və fəxr olunası Vətən xadimidir.

Vidadi BƏŞİROV,
ADU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru

Yada düşər xatirələr: YERİ GÖRÜNƏN ADAM

İmanbaxış müəllimlə uşaqlığımız bir yerdə keçmişdi. Novo-Vasilyevka (İndiki Kürkənd) 8 illik məktəbini bir sinifdə oxumuşuq. Sinifdə ən fəal, cəld və çox bacarıqlı uşaq idi. Dərslərini yaxşı oxumaqla yaqaşı əlavə tədbirlərdə, idman yarışlarında həmişə fəal iştirak edirdi. Gözəl futbol, voleybol, tennis oynayırdı. Kür çayında yaxşı üzürdü, balıq tuturdu. Hamımız ona həsəd aparırdıq. Deyirdik görəsən bunların hamısını necə çatdırır? Üstəlik dərslərini də yaxşı oxuyurdu. Bankə qəsəbə 1 saylı orta məktəbin 10-cu sinifini bir yerdə qurtardıq. Sonra o ali məktəbə, mən isə hərbi xidmətə gedənə kimi istehsalatda çalışdım.

İllər keçdi. O ali məktəbi müvəffəqiyətlə başa vuraraq müəllim oldu. Həmişə görüşərdik, söhbətləşərdik. Bir neçə ay müəllim işləmişdi ki, çox sarsıdıcı ağır xəbər eşitdik. İmanbaxış müəllim avtomobil qəzasına uğrayıb. Nəticəsi də ağır oldu. Onun daimi yataq xəstəsinə çevrilməsi bizə çox böyük təsir göstərdi.

Yenə illər keçdi. Ölüm yatağında olan İman yenə həyat uğrunda mübarizə aparırdı. Fani dünyanı bu qədər tez, vaxtsız tərk etmək istəmirdi. Axı qəlbində neçə-neçə arzuları qalmışdı. Qardaş-bacıları, dost-tanışları İmanı bu qədər tez itirə biləcəklərinə inanmırdılar. Lakin bu baş verdi və ölüm mələyi bu dəfə ondan qalib kimi ayrıldı. 22 dekabr 2014-cü ildə İman Şirəliyevin qəlbi döyünməkdən qaldı. 62 yaşında qara torpaq onu əbədi dünyaya köçmüş atasına, anasına, yaxınlarına qovuşdurdu.

Əslində, o, bu ölümü hələ çox erkən yaşlarında, 1974-cü ilin 9 may günündə gözləyirdi. Taleyin sərt üzü 21 yaşlı gənci, institutu təzəcə bitirmiş müəllimi doqquzuncu ayında avtomobil qəzasına saldı. O, bunun nəticəsində ağır xəsarət aldı, bel sütunu zədələndyindən ömürlük dördtəkərli arabaya məhkum oldu. Belə bir vəziyyətdə keçmiş SSRİ-nin bir çox məşhur xəstəxanalarında olsa da, təcrübəli həkimlərdən müalicə alsa da, İman bəladan qurtula bilmədi. O, taleyin hökmü ilə barışaraq həyat uğrunda mübarizəyə özü başlamalı oldu. Və qalib gəldi. Dördtəkərli araba üstündə



olsa da, həyata sağlam adamlardan daha çox bağlandı. Ömrünü sona kimi insanların səadətinə, xoşbəxtliyinə həsr etdi, Neftçalanı dünyaya tanıtdı. İlk növbədə idmanın şahmat növü üzrə dünya yarışlarına vəsiqə qazanan şahmatçılar yetişdirdi, sonra isə kompüter sahəsində uğurlara imza ataraq neftçalalı gənclərin bu sahədə biliklərinin artırılmasına, onların bu peşə üzrə ixtisaslaşmasına nail oldu.

İndi ölkəmizin bir çox bölgələrində onun yetirmələri müvəffəqiyyətlə çalışır və bu sənətin sayəsində həyatlarını təmin edirlər. İman müəllim direktor kimi Neftçala şahmat məktəbinin uğurlarını yüksəklərə qaldırdı. Respublika əhəmiyyətli bir çox yarışları rayonumuza gətirə bildi. Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə Neftçalaya gələrkən şahmat məktəbində də olmuş, məktəbin direktoru İman müəllimlə, gənc şahmatçılarla görüşərək səmimi söhbət etmiş, onlara uğurlar arzulamışdı. İndi həmin görüşün foto-obyektivə köçən anları şahmat məktəbinin foyesini bəzəməkdədir. Onun şahmatda hazırladığı uşaqlar dünyanın bir çox şəhərlərindəki beynəlxalq yarışlarda iştirak ediblər. Fizzə və Fidan Şirəliyeva bacılarının sorağı uzaq Braziliyadan, Türkiyədən, Baltikyanı respublikalarından gələndə biz də ürəkdən sevinmiş, qürur hissi keçirmişik.

Azərbaycandan uzaqlarda tanınan "Kür-Xəzər" Xeyriyyə Cəmiyyəti Neftçala filialının rəhbəri kimi İman müəllim çox işlər görmüş, cəmiyyətin qızıl nişanı ilə mükafatlandırılmışdı. İndi şəhərimizin küçələrindən biri onun adını daşıyır. İman müəllim həm də xeyirxah insan kimi tanınırdı. Ölkəmizdə qeyd olunan el bayramlarında imkansız məktəb və bağça uşaqlarını, digər şəxsləri hədiyyələrlə, maddi yardımlarla sevindirirdi.

Artıq İmanın bizdən ayrılmasından iki il ötür. Onun həyatdan vaxtsız getməsi hər birimizə, doğmalarına və yaxınlarına ağır təsir etdi. İman müəllimin qardaşları İsgəndər, Vurğun, qardaşı uşaqları Cavanşir, Mürsəl, Rövşən (onların hamısının adlarını çəkmək mümkün deyil) çox kədərlənsələr. Xüsusilə, ona bir bala kimi qulluq edən qardaşı qızı Yasəmən xanımın göz yaşları uzun müddət qurumaq bilmədi. Lakin həyat davam edir və İman müəllimin yoxluğuna indi hamı inanmağa məcburdur.

İman müəllim haqqında fikirləşəndə, nədənsə həmişə ilk növbədə gah sakit, gah da məcrasına sığmayıb Xəzərə doğru can atan Kür gəlir xatirimə. İman da tanıdığım gündən gah sakit, gah da coşqun təbiəti ilə müəllimlərin və şagird dostlarının diqqətini daim özünə cəlb edirdi. Hələ kiçik yaşlarından İmanın səmimi dost, əlaçı şagird, bacarıqlı idmançı olması ilə yanaşı, özünü bir lider kimi göstərməsi də müəllimlərin diqqətindən yayınmırdı. İbtidai sinif müəllimimiz Hüseyn Hüseynov onu bizə həmişə nümunə göstərirdi.

İman müəllimin çoxlu dostları var idi. İllər keçsə də o, əsla unudulan deyil. Onun yeri daim görünür və yəqin ki, bundan sonra da daim görünəcək. Yaxın dostlarından tibb elmləri doktoru Tahir Məlikov, tanınmış həkim-stomotoloq Ramiz Məmmədov, həkim-kardioloq Azər Nağıyev, iş adamları Tahir Xantemirov, Ağamirzə Mustafayev, müəllim Tahir Əsədov və onlarla başqaları İmanı unutmur və onun haqqında xatirələrini bir-birlərilə həmişə bölüşürlər.

O artıq aramızda yoxdur. İstər sağlığında, istərsə də bu dünyada olmayanda hər dəfə yolum kompüter mərkəzinə düşəndə İman müəllimin foyedəki böyük şəklinə dönə-dönə baxıram. Onun cansız baxışları məni çox şeyi təzədən xatırlamağa vadar edir. Bizim hələ danışılası çox sözümüz, görüləsi çox işlərimiz qaldı. Çox heyif qismət olmadı. Allah Sizə qəni-qəni rəhmət eləsin İmanbaxış müəllim. Siz mənim xatirimdə ömrümün sonuna kimi yaşayacaqsınız. Fəxr edrəm ki, Sizin kimi sinif yoldaşım olub.



Ramiz NƏCƏFOV

"Ürəyim sənlə danışır", yaxud bir kitab haqqında düşüncələrim

Sözün yükünü qəlbimizdə daşıya-daşıya yaşayırıq. Bəzən qəlbimiz bu ağırlığa tab gətirir, bəzən də yox. Sözün dərdi üzür bizi. Təki içimizi incidən Söz dərdi olsun. Sözün dərdini çəkəndə də elə bil yüngülləşir adam. Sızlamır, inildəmir. Bizi yaradan Söz, bizi yaşadan Söz, bizi bizdən aparan Söz, bizi bizə qaytaran Söz. Bu qədər ağrıya-acıya baxmayıb belə, Söz dərdini öz dərdi bilənlər Söz kimi ucadır, sözsüz. Təki Sözsüz olmayaq. Bizi var edən də o Sözdür. Canını Söz yolunda dara çəkənlərdən biri də şair Əbülfət Mədətoğludur.



Tanınmış şair Əbülfət Mədətoğlunun "Ürəyim sənlə danışır" (Bakı, "Gənclik", 2015) kitabını böyük maraq hissi ilə vərəqləyirəm. 232 səhifədən ibarət olan bu kitabda müəllifin qələmə aldığı lirik şeirlər öz əksini tapmışdır. Heca və sərbəst vəzndə yazılan bədii nümunələr həm məzmun, həm də forma müxtəlifliyi baxımından diqqəti cəlb edir. Xüsusən yeddilik və səkkizlikdə, eləcə də onbirlik şeir ölçüsündə olan əsərlərdə məna bitkinliyi fərqli bir mahiyyət kəsb edir. Ayrı-ayrı bəndlərdə verilən fikirlərin poetizmi, bəndlər arasındakı bədii əlaqə nəticə etibarı ilə şeirin ümumi ideyasına xidmət göstərir, onun ədəbi estetikasını daha çox dolğunlaşdırır. Sərbəst vəzndə olan nümunələrdə də eyni harmoniyanı əyani şəkildə görürük. Bu onu sübut edir ki, şair öz düşüncələrini müəyyən ahəngdarlıqla, ədəbi dilin normalarına uyğun şəkildə, özünə məxsus deyim tərzi ilə bədii sözə çevirmək iqtidarındadır. Burada ən önəmlisi fikrin özüdürsə, ondan az əhəmiyyətli olmayan cəhət həmin fikrin ifadə tərzidir. Bədii əsər o zaman sənət nümunəsi sayılır ki, orada məzmunla forma vəhdət təşkil etsin. Maraqlıdır ki, şairin şeirlərində məzmun və məna gözəlliyi ilə forma gözəlliyi arasında üzvi bir əlaqə var. Vəzn məsələsi, qafiyə sistemi, sözdən söz yaratmaq bacarığı bir-biri ilə sıx bağlıdır.

Əbülfət Mədətoğlu "Ürəyim sənlə danışır" kitabında öz poetik tapıntıları ilə bir bütövlük yaradır, başqalarına bənzəməyən ədəbi priyomlarla çıxış edir. İlhamı ona nəyi deyirsə, onu duyur, onu dinləyir, onu yazır. Şeirlərindəki hiss və duyğular yalnız onun özünündür. Bu şeirləri oxuyarkən belə bir qənaətə gəlmək olar ki, əsas məsələ nədən yazmaqda deyil, necə yazmaqdadır:

Yatıb yuxuya qalan
Bir yuxunu qaçırıb.
Şan-şan olan ürəyin
Sübhü oyaq açılıb —
Həsrətin növbəsində.

Yaxud:

Bəbəklərim lillənir
Gözlərimin suyundan.
İynə ucu işıq ver —
Tutub çıxım quyudan!

Daha bir şeir:

Yenə içim, çölüm təkdi,
Çəkdi məni ölüm, çəkdi!
Şükür ki, bu ölüm təkdi —
Güləşəcəm, bəlkə yıxdım.

Başqa bir yerdə:

Ömrümün
nişan üzüyü —
kədər.
(Gecikdim bunu
anlamaqda
Allah bilir, nə qədər!) —
taxmışam ürəyimə...
İlk vüsal gecəmizi
xatırladıqca
xəlvətcə
güzgüyə yox,
baxmışam ürəyimə —
nişan üzüyüm yerindədi...

Şair Əbülfət Mədətoğlunun öz dünyası var. Öz dünyasında da öz sözü, öz izi. Şeirlərindəki lirik qəhrəman əslində bu misraları qələmə alan şairin özüdür. Bir başqasının taleyindən, həyatda baş verən, yaxud baş verə biləcək olaylardan yazanda da o, özünü yaradır. Sevgiyə, kədərə, doğmalığa, tənhalığa, bir sözlə, həyatımızın gecəsinə, gündüzünə də şair münasibətini burada aydınlığı ilə görmək olar.

Şairin "Qələmim" şeirinə nəzər yetirək:

Bir yağış yağır
İstidən isti.
Sən bu yağışı
Vəsf etdin, bəsdi —
Qələmim...

* * *

Bu yağış mənim
Göz yaşlarımdı.
Hər bir giləsi
Daş-qaşlarımdı —
Qələmim.

* * *

Bu isti yağış
Yuyar ağrımı.
Yağışdan düzəlt
Mənim sarğımı —
Qələmim!.

Mövzusundan asılı olmayaraq şairin qələmə aldığı şeirlərdə "poetik mən" çox güclüdür. Bu qəbildən "Əridim", "Gəlir", "Mən", "Hələ" və digər şeirlər çox fərqlənir. Belə şeirlərdə müraciət olunan mövzu bir növ öz fəlsəfi mahiyyətində açılır, şairin toxunduğu məsələlər bədii-fəlsəfi dil vasitəsi ilə daha mühüm əhəmiyyət kəsb edir:

Məni keçə bilmədin,
Mən yolunda divardım.
Çatlamış dodağımı
Göz yaşımla suvardım.

* * *

Məni seçə bilmədin,
Mən işıqsız yuvaydım.
Dilinin unutduğu
Pıçıltıydım, duaydım.

Şair "Kədərimin yaşı" şeirində isə belə deyir:

Mən gözümün dibində
Göz yaşımı göyərtdim.
Kədəri əzizləyib
Ürəyimə öyrətdim.

* * *

Yaşadığım təkliyin
Öpdüm hər gün daşını.
Unudun, soruşmayın
Kədərimin yaşını!

Kitaba daxil olan bir çox adsız şeirlərə də rast gəlirik. Müəllif burda da yanılmır. Bu adsız şeirlər əslində poeziyanı dərindən duyan, ona yüksək məna verən insanlar üçün bir yaddaşa çevrilir. Qəlbin, gözün, ağlın yaddaşına. Belə şeirlər heç zaman unudulmur, əksinə, onların ömrü daha çox əbədiyaşarlıq qazanır:

Tumurcuqdu göz yaşım
Kirpiyimin ucunda.
İslanacaq üst-başım
Ulduz-ulduz açanda.

Ümumiyyətlə, Ə.Mədətoğlunun sözündə bir etiraf var. Bu etiraf səmimiyyətdən doğur. İnsan qəlbinin keçirdiyi hisslər — bütün çırpıntılar azad ruhun varlığı deməkdir. Əbülfət Mədətoğlu da bir insan və şəxsiyyət olaraq öz qəlbinin, öz ruhunun sahibi və şairidir.

Fikirlərimi onun bir şeirindən bir bəndlə yekunlaşdırır, gözəl şairimizə yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram:

Günəşin öncə ilıq,
Sonra od nəfəsini
Duyduqca kökləyirəm —
Yaşamaq həvəsimi.

Zaur ƏRMUĞAN,
şair-publisist

Mənəvi dünyamız: CƏMİYYƏT VƏ AİLƏ

Bunları bir-birindən ayırmaq mümkün deyil, ailə və cəmiyyət vəhdətdədir. Ailə özü kiçik bir cəmiyyətdir, cəmiyyət isə ailələrin cəmi, məcmusudur. Cəmiyyət də, ailələr də heç vaxt bir vəziyyətdə qalmır, daim dəyişir, başqalaşır, yeni forma və məzmun alır. Amma nə qədər dəyişib başqalaşsa da onlar gərək həmişə bir-birinə uyğun olsun, bir-birini tamamlasın. XIX, XX əsrlərin cəmiyyətlərini, ailələrini əlbəttə ki, XXI əsrin cəmiyyətinə, ailəsinə bənzətmək olmaz, bunların arasında böyük fərqlər var. Amma ailə və cəmiyyətlə bağlı elə məsələlər də var ki, onlar gərək heç vaxt dəyişməsin, həmişə qorunub saxlansın. İlk növbədə insanın xisləti, əxlaqı ilə bağlı olan məsələlər. Ona görə ki, onları bizə Yaradanın özü bəxş edib, onlarsız biz heç insan adlana bilmərik...

Təcrübə göstərir hansı cəmiyyətdə ailələr möhkəm olsa, milli, dini, əxlaqi dəyərlərə əsaslansa o cəmiyyətin özü də möhkəm olar, heç vaxt parçalanmaz, dağılmaz. Bunu yaxın keçmişin canlı nümunələri də aydın şəkildə göstərir. Desək Böyük Vətən müharibəsinin qanlı qovğalarından, aclıqdan, qırğından, yoxsulluqdan bizi uğurla çıxaran, ölüb getməyə qoymayan ilk növbədə ailələrimizin möhkəmliyi, milli, dini ənənələrimizə bağlılığı oldu, yəqin ki, səhv etmərik. Müharibənin ilk günündə dahi şairimiz Səməd Vurğun "Bilsin ana torpaq, eşitsin Vətən, müsəlləh əsgərəm mən də bu gündən" deyərək bütün xalqı, milləti səfərbərliyə çağırırdı, əli silah tutan oğullarımızın hamısı mərdliklə döyüşə atıldı. 600 mindən artıq azərbaycanlı cəbhəyə yollandı, 300 mindən çox Vətən övladı həlak oldu. Arxa cəbhədə qalan insanlar da tarixin sınağından ləyaqətlə çıxdılar. Əsgər ailələri gecə-gündüz fədakarlıqla çalışdı, ön cəbhəni silah-sursatla, ərzaqla vaxtlı-vaxtında təmin etdi...

Müharibə illərində qız-gəlinlərimiz, qadınlarımız tarixə şanlı səhifələr yazdılar. Ərləri cəbhəyə yollanan qadınlar o ağır illərdə aclığa, yoxsulluğa, səfalətə baxmayaraq övladlarını, uşaqlarını, balalarını nəinki atmadılar, başsız qoymadılar, əksinə, həyat yoldaşları cəbhələrdə həlak olsalar, onlardan qara kağızlar alsalar da, buna inanmadılar, qara saçlarını ağ hörərək illər uzunu sədaqətlə oturub ərlərinin yolunu gözlədilər, təkbaşına balalarını böyütdülər. Belə mərd, sədaqətli qadınlardan biri də elə mənim xalam Ağannə Hacıyeva idi. Həyat yoldaşı Qulam cəbhədə həlak olanda Ağannə xalamın cəmi 21 yaşı vardı. O, ruhdan düşmədi, ağlayıb sıtqımadı, özünü odaközə vurdu, kolxoz işində çalışdı, iki övladını — Ağadədəni və Tahirəni təkbaşına böyütdü, dünyasını da təmiz bir adla dəyişdi. Belə analar bizdə yüzlərlə, minlərlədir.

Böyük Vətən müharibəsi illərinin bu örnəyi, bu ənənəsi bu gün də uğurla yaşayır, bu gün də davam edir. Bu gün də azadlıq uğrunda döyüşlərdə, Qarabağ müharibəsində həlak olmuş həyat yoldaşına sadiq qalan, qara saçlarını ağ hörərək atasız balalarını təkbaşına böyüdən nə qədər analarımız var. Təkcə İlhamla Fərizənin əfsanəvi dastanı azərbaycanlı qızının, qadınının həyat yoldaşına, sevgilisinə sədaqətinin əzəmətli bir abidəsidir. Qadınlarımız, qızlarımız yeri gələndə əllərinə silah da alırlar, torpaqlarımızın bütövlüyü uğrunda düşmənlə ölüm-dirim savaşına da qalxırlar, çıxış yolu tapmayanda namuslarını qorumaq üçün özlərini dağdan, qayadan yerə atmağı, həlak olmağı da bacarırlar. Qarabağ savaşının ilk qəhrəmanlarından olan cəsur jurnalist Salatın Əsgərovaya ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Salatın xanımın yeganə oğlu Ceyhun bu gün anasının çətin peşəsini ləyaqətlə davam etdirir.

İstər-istəməz həyatımızda, ətrafımızda baş verən cürbəcür çirkin, neqativ halları göz önünə gətirirsən. Fikirləşirsən görəsən bu qədər mərd, mübariz, milli, dini, əxlaqi ənənələrə sadiq bir xalqın, millətin içərisində həyat yoldaşını, övladlarını, yaxınlarını ataraq baş götürüb gedən qadınlar, qızlar haradan peyda olub ortaya çıxır? Əlbəttə, bu təkcə bu günün bəlası deyil. Belə hallar həmişə olub, bu gün də olur. Amma pis odur belə hallar indi həmişəkindən daha çoxdur, daha pisi isə odur ki, belə hallar getdikcə daha da artır. Statistika da bunu təkzibedilməz şəkildə sübuta yetirir. Statistik məlumata görə hər il yeni qurulan ailələrin 50-60 faizi boşanır. Bəs görəsən bunun səbəbi nədir, cəmiyyətin özülü, əsası olan ailəni necə qoruyub möhkəmləndirmək olar? Əlbəttə, bu sualın cavabı sadə deyil, mürəkkəbdir. Bununla bağlı bəzi mülahizələri söyləmək istəyirəm...

(Ardı 8-ci səhifədə)

Xoş gəlmisən, Yeni il!



Artıq yeni əsrin 16-cı ilini də başa vurmaq üzrəyik. Qarşıdan yeni, 2017-ci il gəlir. Yeni ili Yer üzündə hamı həmişə böyük sevinclə, işıqlı arzular və ümidlər içində qarşılayır. Bu bayram həm yaşlıların, həm gənclərin, həm də uşaqların sevimli bayramıdır. Bizim xalqımız da həmişə bu bayramı, yeni təqvim ilini beləcə sevinclə qarşılayıb. Lakin unudulmaz ulu öndərimiz yeni il bayramını ikiqat sevinc dolu bayrama çevirmişdir. Məhz o böyük milllət oğlunun təşəbbüsü ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunmuş, bayram sevincimizə daha möhtəşəm bir təntənə, dünya miqyaslı iftixar hissi, qürur hissi qatmışdır. Həmin günü dünyanın müxtəlif yerlərində yaşayan 50 milyondan çox azərbaycanlı öz milli birliklərini qeyd edir, azad, müstəqil Azərbaycan adlı Vətəni, milli dövləti və dövlətçiliyi ilə fəxr edir, qürur hissi duyur.

2016-cı il bəşəriyyətin yaddaşında o qədər də xoş xatirələrlə qalmadı. Dünyanın üç qitəsində müharibə ocaqları sönmək bilmədi, hər gün terror hadisələri, insan köçü, aclıq və səfalət baş alıb getdi. Quşlar isti ölkələrə uçduğu kimi, insanlar da sakit, müharibəsiz həyat yaşamaq üçün başqa ölkələrə üz tutmağa başladılar, yollarda qırıldılar, dənizlərə qərq oldular, mənasız döyüşlərin qurbanına çevrildilər. Sivilizasiyanın indiki vaxtında bu proseslər olduqca təəccüblü və dəhşətli görünür. Bəs hanı Yer üzünün əşrəfi, Allahın şah əsəri sayılan insanın ali şüuru, ağlı, zəkası?! İrqi, dini, milli ayrı-seçkilik 2016-cı ildə də insanlardan yan keçmədi...

2016-cı ildə Azərbaycan bütün dünyaya nümunə göstərdi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev bu ili ölkəmizdə "Multikulturalizm ili" elan etdi. Halbuki heç Azərbaycanda buna ehtiyac da yox idi. Onsuz da bizim çoxmillətli ölkəmizdə bütün millətlər dinc yanaşı, qardaş kimi yaşayırlar, bütün dinlər bir-birlərinə hörmətlə yanaşır, dini rəhbərlər ən vacib anlarda, əlamətdar günlərdə bir-birinin yanında dayanır, böyük insanlıq və vicdan azadlığı, vicdan birliyi nümayiş etdirirlər. Əslində 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması dincliyi, gözəlliyi alt-üst olmuş dünyaya, bütün bəşəriyyətə göndərilən böyük bir mesaj idi: baxın və görün, əsl xalqlar dostluğunu, dinlər dostluğunu Azərbaycandan öyrənin! Dünyanı məhv olmaq təhlükəsindən yalnız sülh xilas edə bilər, müharibə və sanksiyalar, təzyiqlər və təqiblər, gözü bağlayan hərislik və maraqlar yox.

Dünyadakı ictimai və siyasi təlatümlərin dalğası sərhədlərimizə qədər gəlib çatdı. Lakin müdrik xalqımız və müdrik dövlət başçımız böyük təmkin nümayiş etdirdi, ölkəmizdə nəinki heç bir dini, milli, irqi insident baş vermədi, əksinə, xalqımız daha dostcasına birləşdi, ümumi Vətənimiz olan Azərbaycanımızı başlarından ucada tutdular. Ölkəmizdə bir-birinin ardınca gözəl beynəlxalq tədbirlər keçirildi, gələn qonaqlar heyranlıqlarını gizlədə bilmədilər.

İndi qarşıdan yeni, 2017-ci il gəlir. Ümid edirik ki, gələn Yeni il xalqımız, Vətənimiz, dövlətimiz, dövlətçiliyimiz və Milli Ordumuz üçün daha uğurlu il olacaq, daha böyük uğurlara, nailiyyətlərə, qələbələrə nail olacağıq.

Yeni ilin mübarək, Azərbaycan!
Yeni ilin mübarək, doğma, əziz Neftçala!

Neftçala bayram libasında

Hər bir bayramın, əlamətdar günün öz tarixi, öz gözəlliyi, öz şirinliyi var. Onların hər birini xoş gəldinlə qarşılayır, sevinclə yola salırıq. Hərəsi də özünə məxsus xoş xatirə, iz qoyur yaddaşımızda. Yolunu daim böyük fərəhlə, intizarla gözlədiyimiz Yeni ilin də öz sevinci, öz təravəti var. Həmişə təzəlik gətirir ömrümüzə Yeni il. Həmin

gün eyni zamanda xalqımızı, millətimizi daim birliyə səsləyən Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirik. Necə deyərlər, dekabrın sonuncu günündə — 31-də bayram bayrama qarışır, sevinən, gülən, böyük fərəh hissi keçirən insanlar qarşıdan gələn Yeni ilə yeni arzularla, ümidlərlə qədəm qoyurlar. Bütün xalqımız kimi neftçalalılar da bu əziz bayramları həmişə layiqincə qarşılamağa adət ediblər. Ötən illərdə biz bunu əyani şəkildə görmüşük, duymuşuq. Ümumrayon tədbiri ilə yanaşı ayrı-ayrı idarə və müəssisələrdə, məktəblərdə, mədəniyyət obyektlərində, uşaq bağçalarında bir-birindən maraqlı, yaddaqalan tədbirlər təşkil olunub. Mədəniyyət işçilərimizin rayon mərkəzində, ayrı-ayrı kənd və qəsəbələrdə hazırladıqları musiqili-bədii proqramlar da sakinlər tərəfindən böyük razılıq hissilə qarşılanır. Rəngarəng bayram tədbirləri onların da yaddaşında xoş xatirə kimi qalır.

Yenə gözəl günər ərəfəsindəyik. Hamımız ümumi sevinc içində 2017-ci ili qarşılamağa hazırlaşırıq. İnanırıq ki, Yeni il yeni arzular gətirəcək ömrümüzə. 2016-cı ildə başladığımız işləri qarşıdakı ildə uğurla davam etdirəcəyik. İnsanların rifahına xidmət edən neçə-neçə yeni layihələrin şahidi olacağıq.

Belə sevincli, fərəhli günlərdə bayrama hazırlıq ön plandadır. Milli Qəhrəmanımız Xanoğlan Məmmədovun adını daşıyan şəhər mədəniyyət və incəsənət sarayının qarşısında qurulan al-əlvan yolka təkcə uşaqların deyil, elə böyüklərin də ürəyindəndir. İndi buradakı meydana daha çox adam toplaşır. Sevimli Şaxta baba ilə Qar qız da deyəsən vaxtından əvvəl gəliblər Neftçalaya. Onlar qurulan yolkanın önündə insanlarla xatirə şəkilləri çəkdirir, məzəli sözləri, söhbətləri ilə uşaqları əyləndirirlər.

Doğma Neftçalamız yenə bayram libasına bürünür. Azadlığımızın, müstəqilliyimizin rəmzi olan üçrəngli bayraqlarımız yollar, küçələr boyunca dalğalandıqca qururumuz daha da artır. Mədəniyyət işçiləri əvvəlkilərdən daha fərqli, daha rəngarəng yeni bayram proqramı hazırlayırlar. Rəngarəng musiqi nömrələri, qəlbəyatan mahnılarla yanaşı yumorlu kiçik səhnələr də tamaşaçılara bol-bol sevinc bəxş edəcəkdir.

Rayonumuzun sakinləri yaxşı işlədikləri, yaxşı əmək nümunələri yaratdıqları kimi, yaxşı da dincəlməyi, əziz bayramlarını layiqincə qeyd etməyi də bacarırlar. İndi hər bir neftçalalı qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bayramlarının böyük sevinci üzərində köklənib. Evini, eşiyini qaydaya salan, bayrama hazırlıq görən rayonumuzun sakinlərinə biz də Yeni iliniz mübarək deyirik. Arzu edirik ki, 2017-nin qədəmləri daim yüngül olsun. Gəlişi ilə ellərimizə, obalarımıza bolluq, bərəkət gətirsin. Hər yeni gün üzümüzə xoş müjdələrlə açılsın.

F.AĞAYEV

Yarmarka yolunuzu gözləyir

Son illər Neftçala şəhərindəki ticarət mərkəzində bayram yarmarkalarının təşkil olunması ənənə halını almışdır. El bayramları ərəfəsində, bayram günlərində belə yarmarkalar xüsusilə zəngin olur. Rayon sakinləri müxtəlif ərzaqlara olan ehtiyaclarını məhz bu yarmarkalar vasitəsilə ödəyirlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni il axşamını da layiqli süfrəsiz təsəvvür etmək mümkün deyil. Gözəl süfrə hazırlamaq üçün isə keyfiyyətli ərzaq məhsulları lazımdır. Bunu nəzərə alaraq rayon rəhbərliyinin təşəbbüsü ilə ticarət mərkəzində növbəti yarmarka təşkil olunmuşdur. Əvvəlki günlərlə müqayisədə ticarət mərkəzində daha çox canlanma duyulur. Buraya gələnlərin sayı xeyli dərəcədə artmışdır. Onlar diri balıq, ev quşları, təzə ət, meyvə və digər kənd təsərrüfatı məhsullarını buradan ala bilirlər. Özü də bazar qiymətlərindən ucuz. Bu isə sakinlərdə səmimi minnətdarlıq duyğuları oyadır. Onlar yarmarkanın təşkilinə görə razılıqlarını bildirirlər.

Hörmətli neftçalalılar! Yarmarkadakı məhsullar getdikcə zənginləşir. Yolunuzu buradan salsanız istədiyinizi ala bilərsiniz. Ona görə də sizi bayram yarmarkasına dəvət edirik. Gəlin, seçin və alın.

TƏZƏ İL ARZULARI

Beştalı-Şirvanlı yolunda işlər başa çatsın

Yol hər bir ölkənin mədəniyyətinin ilk göstəricisi, ilk nümayişidir. Gələn qonaqlar, təbii ki, yol ilə gəlirlər, ilkin təəssüratlarını da çox vaxt yoldan alırlar.

Əlbəttə, ölkəmizdə bu sahədə son illərdə çox böyük işlər görülüb və bu gün də görülməkdədir. Təmirə ehtiyacı olan çoxlu sayda yollarımızın yenidən qurulması vətəndaşlarımızın yaşayışını daha da yaxşılaşdırdığından, rahatlıq yaratdığından həmin ərazilərdəki insanlar ürəkdən sevinmişlər, fərəh hissi keçirmişlər.

Rayonumuz da bu sevincdən, bu qayğıdan kənarda qalmamışdır. Bir neçə il əvvəl uzun illər baxımsız qalmış Şorsulu-Xolqarabucaq-Xəzərkənd yolu təmir olunaraq sakinlərin istifadəsinə veriləndə bu xoş hisslər yaşanmışdı. İndi Xolqarabucaq kəndindən birbaşa Bakıya rahat marşrut xətləri işləyir, daha adamalar min əziyyətlə əvvəl Salyana, oradan da Bakıya getmirlər.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə Beştalı-Cəngən-Şirvanlı yolunun təmiri üçün də vəsait ayrılmış, lakin nədənsə yarımçıq qalmışdır. Biz Prezidentimizdən çox razıyıq, sərəncam verib, vəsait ayırıb. Amma yolun təmirinin yarımçıq qalmasından çox təəssüflənirik. İnanırıq ki, qarşıdan gələn yeni ildə bizim də yolumuz düzələcək, rahat gediş-gəlişimiz təmin olunacaqdır.

R.ƏSƏDOV,
Abasallı kənd sakini

Hər şeyin təzəsi, bazarın köhnəsi deməyək

Adətən, paltarımız, ayaqqabımız köhnələndə gedib mağazadan, dükandan təzəsini alırıq. Amma şükür, indi heç kim yamaqlı paltar, yamaqlı ayaqqabı geymir. Atalar da deyir hər şeyin təzəsi, dostun köhnəsi. Daha bazarın köhnəsi demir ki?! Özü də "yamaqlı" bazarın köhnəsi!..

Elə vaxt olur ki, görürsən bir adam özünə təzə, qəşəng ev tikir, amma həyətindəki köhnə, cındırından cin hürkən komanı sökməyə ürəyi gəlmir, heç təzə evə köçməyə də tələsmir. Təzənin yanında köhnənin necə miskin göründüyünün heç fərqinə də varmır.



Köhnə bazarın görüntüləri

Bazar insanların gündəlik üz tutduqları bir məkandır, yaşayış üçün zəruri olan gündəlik tələbatları, təzə ərzaq məhsulları mağazalardan çox bazarda satılır. Bir neçə il bundan qabaq rayon rəhbərliyinin təşəbbüsü ilə şəhərimizdə yeni bazar - ticarət mərkəzi tikildi. Özü də çox geniş, səliqə-sahmanlı, yeri asfalt örtüklü, qarşısında maşınların dayanması üçün rahat yeri olan bazar. Amma biz nə etdik? Köhnə, "yamaqlı" bazardan çıxmadıq ki, çıxmadıq. Hərə bir plaş parçasını çəkib başına, girib altına ki, nə var, nə var, bazardayam. Amma unutmuşuq ki, yeni bazar bizim üçün tikilib. Həm satan, həm alan üçün. Bəs onda görəsən biz niyə bu "yamaqlı", "cındır" bazardan əl çəkib təzəsinə yığışmırıq? Zir-zibil və çirkab içində "eşələnmək", antisanitar "bataqlıq"da çabalamaq görəsən niyə bizə xoş gəlir? İl təzələnir, arzu edirəm bu təzə ildə biz də bir az "təzələnək", təzə bazara üz tutaq, köhnə bazarın köhnə mikrobunu evimizə daşımayaq.

Müasir üslubda tikilən yeni bazar

Z.MƏMMƏDOV

Maraq dünyamız: XOBBİ HAQQINDA NƏ BİLİRİK?

Deyirlər insanlar dünyaya gələrkən ağ vərəq kimi tərtəmiz olurlar. Hər doğulan körpə doğurdan da ağ vərəqdir, hələlik onun üzərində heç bir yaxşı və pis "yazı" yazılmayıb, gələcəkdə kim olacağı, necə şəxsiyyət kimi formalaşacağı doğulduğu ailədən, yaşadığı mühitdən və cəmiyyətdən mütləq dərəcədə asılıdır. Körpə dil açır, böyüyüb məktəbə gedir, sonra özünə sevdiyi bir sənət seçir, idrakı formalaşır və nəhayət, müəyyən bir sahə üzrə mütəxəssis olur: həkim, müəllim, mühəndis, hüquqşünas və s. Seçdiyi sənət onun bütün ömrü boyu yol yoldaşına, özünü ifadə formasına və eyni zamanda maddi tələblərini ödəyən bir vasitəyə çevrilir.

Lakin dünyada beynəlxalq bir söz də mövcuddur, ona xobbi deyirlər. Mənası şəxsi, yalnız bir nəfərə məxsus olan əyləncə anlamına gəlir. Maraqlıdır ki, indiki dövrdə nədənsə xobbi barədə nə söhbət açılmır, nə də bir yazı yazılmır. Sanki indi daha heç kəsin xobbisi yoxdur və yaxud da xobbi heç kəsə lazım deyil. Əslində isə bu qətiyyən belə deyil. Xobbi insanın həyatında olduqca böyük, tale əhəmiyyətli bir rol oynayan, ömrünü uzadan, sağlamlığını müdafiə edən, əsəblərini qoruyan, mənəvi dünyasını zənginləşdirən, daxilən sınmağa, əyilməyə, xırdalanmağa qoymayan bir gözəllik dünyasıdır. Xobbi dünyası olan adam heç bir vaxt paxıl və ikiüzlü olmur, özgəsinin söhbətinə və şöhrətinə qısqanc nəzərlərlə baxmır, insanların uğurlarına sevinir, hamıya yaxşılıq arzulayır və yaxşılıq edir. Xobbisi olan insanlar adətən xoşxasiyyətli, nikbin, sabaha inamlı və işıqlı insanlar olurlar. Xobbi bəzən insan həyatında elə yer tutur ki, yaşamaq üçün "yardımçı təsərrüfat"a çevrilə bilir. Xobbi həm də insana təyyarə meydanını xatırladır. Həmişə göylərdə uçan təyyarələr "düşmək" üçün həmişə doğma, sakit meydanlarına qayıdır, yanacaq götürürlər. Xobbi də insanın həm mənəvi, həm də fiziki "yanacaq" götürdüyü sakit bir meydan, mənəvi bir limandır.

Dünyada xobbisi olan dahi məşhurlar çox olubdur. Dünya şöhrətli İtalyan rəssamı Leonardo da Vinçinin xobbisi mexanika ilə məşğul olmaq olmuşdur. O öz dövründə bəzi texniki mühərrikləri bərpa edən alim kimi də tarixə düşmüşdür. Bu gün dünyada hər bir insanın məişətinə daxil olan bir əşya var: qayçı. Yer üzündə elə bir ev və ya ofis tapılmaz ki, orada qayçı olmasın, elə bir insan yoxdur ki, qayçıdan istifadə etməsin. Lakin çox az adam bilir ki, qayçını ixtira edən şəxs məhz Leonardo da Vinçi olubdur.

Kimyəvi elementlərin dövri cədvəlini kəşf edən dahi rus kimyaçısı Mendeleyevin də xobbisi maraqlı olmuşdur. Müsafirləri, yaxınları onu çox gözəl çamodan ustası kimi tanıyırdılar. Bu böyük insan öz işindən yorulanda çamodan düzəldər, onlardan dostlarına paylayar, bəlkə də satarmış. Bir dəfə böyük alimi axtaran bir şəxs onun evinin yerini alimin yaxın qonşusundan soruşur. Sadəlövh qonşu yaxınlıqda alim Mendeleyevin yox, çamodan ustasının yaşadığını söyləyir...

Mən bir tikinti mühəndisi tanıyıram. Bu adam hələ sovet dövründə, gənc yaşlarından ən maraqlı kitabları toplamaqla məşğuldur. Hətta o zaman şəxsi möhür də hazırlatdırmışdı və kitabların titul vərəqinə vururdu: "Filankəs Filankəsovun şəxsi kitabxanası". O, ən uzaq şəhərlərin nəşriyyatlarına abunə yazılmışdı, hətta Murmansk və Vladivostokdan ünvanına gələn bahalı kitab bağlamalarını poçtdan aldığının dəfələrlə şahidi olmuşam.

Xaçmaz rayonunda yaşayan ədəbiyyat müəllimi, şair Qərib Aşkarinin xobbisi daha da maraqlıdır. Bu adam həm də daş üzərində rəngli mozaika ustası kimi tanınır. Müxtəlif xatirə bulaqları, parkları, istirahət bağlarının gözəl mozaika işləri məhz Qərib müəllimin əllərinin bəhrəsidir. O həm də "Xəlil Rza Ulutürk" mozaik abidəsinin də müəllifidir.

Xobbinin müxtəlif növləri, formaları mövcuddur. Məsələn, geniş yayılmış xobbi növlərindən biri də gözəl bağçılıq işidir. Elə müxtəlif peşə sahibləri var ki, onlar öz bağlarında heyrətamiz calaq işləri aparır, bir gövdə üstündə iki, üç meyvənin yetişməsinə nail olurlar və ya əsrarəngiz gül bağı yaradır, qonaqlarını heyrətə salır, onlara gül payı verərək sevindirirlər. Bəziləri deyir ki, mənim xobbim bədii kitab oxumaq və ya musiqiyə qulaq asmaqdır. Təəssüf ki, bunu xobbi hesab etmək olmaz. Çünki bədii kitab oxumaq, mütaliə etmək və musiqiyə qulaq asmaq hər bir normal insanın mənəvi borcu və tələbatı olmalıdır. Əks halda insan cahilliyə qapıla bilər.

Böyük Səməd Vurğunun xobbisi ovçuluq olmuşdur. Sərbəst vaxtını demək olar ki, həmişə ovda keçirən Səməd Vurğunun yaradıcılığına onun xobbisi olan ovçuluq böyük təsir göstərmiş, xalqımıza böyük poeziya inciləri bəxş etmişdir. Şair dostum, xalq şairi Fikrət Qocanın xobbisi isə balıq ovudur. Öz tilovlarını götürüb balıq tutmağa gedən Fikrət müəllim hər dəfə geri qayıdanda sanki bir az da gəncləşir, daha gözəl şeirlər yazır.

Bir sözlə, xobbi yalnız şəxsi maraq, şəxsi əyləncə deyil. Xobbinin spektri olduqca zəngindir. Onun nəinki bir şəxsin, hətta bütöv cəmiyyətin həyatına saçdığı işığı, sabitliyi və əmin-amanlığı, sülhü və ədaləti sadəcə olaraq görmək və qiymətləndirmək lazımdır.

Zabil PƏRVİZ

GÜNDOĞAR

№34-35-36-37 (6623) 20 dekabr 2016-cı il

SON SƏHİFƏ

Rayon mərkəzi kitabxanasında

İLK KİTABIN SEVİNCİ

Kitabxanamızın metodika-biblioqrafiya şöbəsinin müdiri Bədirə Həsənqızı (Niftəliyeva) keçirdiyimiz bütün tədbirlərin ən fəal təşəbbüskarlarından, təşkilatçılarından və aparıcılarından biridir. Elə bir tədbirimiz, yığıncağımız, oxucu konfransımız olmur ki, Bədirə xanım onun təşkilində var qüvvə ilə iştirak etməsin, o tədbirin, yığıncağın, oxucu konfransının maraqlı keçməsinə öz töhfəsini verməsin. Bu dəfəki tədbir isə Bədirə xanımın özünə həsr olunmuşdu — kitabxanamızda onun təzə çapdan çıxmış "Ömür axarı" adlı (Bakı, "Araz"-2016) ilk şeirlər kitabının təqdimatı keçirilirdi. Elə bu tədbirin də əsas təşkilatçısı və aparıcısı Bədirə xanımın özü oldu, o bu tədbirin də əsas ağırlığını üzərinə götürdü...

Tədbiri giriş sözü ilə rayon mədəniyyət və turizm şöbəsinin müdiri Elmira Kazımova açaraq iştirakçıları, bu münasibətlə Bakıdan gələn qonaqları ürəkdən salamladı, Bədirə xanımı təzə çapdan çıxmış kitabı münasibətilə təbrik etdi. Sonra sözü Bədirə xanımın özünə verdi. Bədirə xanım onun sevincinə şərik çıxaraq bura toplaşan oxuculara minnətdarlığını bildirdi, ilk kitabının təqdimat mərasimində iştirak etməkdən ötrü soyuq havada Bakıdan rayonumuza təşrif buyurmuş Azərbaycan Yazıçılar Birliyinin üzvlərini — kitabın redaktoru, yazıçı-publisist Sona Abbaseliqızını, tanınmış şairlər Eldar İsmayılı, Niftalı Göyçəlini, yazıçı-publisist Mürvət Yusifli-ni tədbir iştirakçılarına təqdim etdi.

Tədbirin aparıcısı — veteran mədəniyyət işçisi, mərkəzi kitabxananın keçmiş direktoru Cahangir Abdullayev də Bədirə xanımı təzə çapdan çıxan ilk kitabı münasibətilə təbrik etdi, onu ilk dəfə burada işə özünün qəbul etdiyini xatırlatdı. Sonra da təbrik üçün sözü iştirakçılara verdi.

Kitabın redaktoru Sona Abbaseliqızı "Ömür axarı" kitabının məziyyətlərindən danışdı, bu kitab üzərindəki yaradıcılıq işləri barədə məlumat verdi. Razılıq hissi ilə xatırlatdı ki, "Ömür axarı" kitabının ərsəyə gəlməsində "Araz" nəşriyyatının direktoru, həmyerlimiz Əlirza Sayılovun da böyük zəhməti olub.

Azərbaycan Yazıçılar Birliyinin üzvləri Eldar İsmayıl, Niftalı Göyçəli və Mürvət Yusifli də "Ömür axarı" kitabı haqqında ürək sözlərini söylədilər, yeni yazdıqları şeirlərini oxudular.

Tanınmış şair, "Gündoğar" qəzetinin əməkdaşı Zabil Pərviz şeirin, sənətin ecazkar qüvvəsindən, rayonumuzun yaradıcı ziyalılarından, "Gündoğar" qəzetinin nəzdindəki "Xəzər nəğmələri" ədəbi məclisinin gənc ədəbi qüvvələrə göstərdiyi diqqət və qayğıdan danışdı, Bədirə xanımı ilk kitabı münasibətilə təbrik etdi.

Tanınmış jurnalistlər Ələvsət Əliyev, İbrahim Nurlu, yazıçı-publisist İmamverdi Zeynalov, şəhər 1 saylı tam orta məktəbinin müəllimi Dilarə Hüseynova və başqaları da təqdim olunan kitab barədə fikirlərini söylədilər, Bədirə xanımı ilk kitabı münasibətilə təbrik etdilər.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin nümayəndəsi Fərid Əhmədov mərkəzi kitabxananın kollektivinə belə gözəl tədbir təşkil etdiklərinə görə təşəkkürünü bildirdi, Bədirə xanıma təbriklərini çatdırdı.

Bədirə xanıma gül dəstələri təqdim olundu, çoxlu xatirə şəkilləri çəkildi.

Nəzakət MƏMMƏDOVA

2017-Cİ İL XORUZ İLİDİR

Xoruz ili və bu ilin xüsusiyyətləri

2017-ci ilin 28 yanvar tarixində Xoruz ili Meymun ilini əvəz edəcək. İşıq və oyanış xüsusiyyətlərini daşıyan bu il də orjinal və enerji ilə dolu olacaq. Bu günə qədər düzgün və dəqiq idarə olunan layihələr ən böyük mükafatlarını məhz bu il əldə edəcəklər.

Xoruz illəri: 1933-1945-1957-1969-1981-1993-2005-2017-2029...

Xoruz ilinin uğurlu rəqəmləri: 5, 7 və 8

Xoruz ilinin uğursuz rəqəmləri: 1, 3 və 9

Xoruz ilinin uğurlu rəngləri: Qızılı, Qəhvəyi və Sarı

Xoruz ilinin uğursuz rəngləri: Ağ və Yaşıl

Xoruz ilinin güclü xüsusiyyətləri: Azadsevərlik, istiqanlılıq, qabiliyyətlilik, özünə güvənməklik.

Xoruz ilinin zəif xüsusiyyətləri: Səbrsizlik, həssaslıq, gözləniməz reaksiya, eqoistlık.

Xoruz ilinin uğurlu sevgi münasibəti: Öküz və İlan illəri ilə.

Xoruz ilinin uğursuz sevgi münasibəti: Dovşan ili ilə.

Qarşıdakı ildə bürclər nə vəd edir

Mayyaların gələcəyə dair çin çıxmış bir çox proqnozları, astrologiya elmi barədə bilgiləri hər zaman diqqət mərkəzində olub. Feat.Az mayyaların 2017-ci Xoruz ilinə dair proqnozlarını təqdim edir:

Qoç (21 mart-19 aprel). "Həyat mübarizədir" devizi altında keçən iki çətin ildən sonra bu il sizin üçün əsl istirahət ili olacaq. .Zəhmətinizin bəhrəsini görəcəksiniz. Amma hər şey heç də ayağınızın altına xalı kimi sərilməyəcək. İstədiyinizi almaq üçün səy göstərməlisiniz.

Buğa (20 aprel-20 may). Həyatdan zövq alacaqsınız. Hər şey yağ kimi getməyəcək, amma çəkdiyiniz əziyyətlərin əvəzini alacaqsınız. Ardıcıl olaraq 3 il həyatdan zövq almaq şansınız yaranacaq.

Əkizlər (21 may-20 iyun). Pozitiv zamandasınız. Xoruz ili sizin üçün gözəl başlayacaq, ümumiyyətlə uğurlu keçəcək. Havada möcüzə hiss edəcəksiniz. Növbəti 4 il sizin iliniz olcaq.

Xərçəng (21 iyun-22 iyul). Qara zolağa əlvida deyəcəksiniz. Taleyiniz sizi maraqlı insanlarla, sadiq dostlarla qarşılaşdıracaq. Onlar sizin şəxsiyyət kimi yetişməyinizdə mühüm rol oynayacaqlar. Növbəti 3 il sizin üçün uğurlu olacaq.

Şirlər (23 iyul-22 avqust). Hər şey hazır şəkildə ovcunuzun içinə düşəcək. Siz həyatda hər şeyi dişlə-dırnaqla qazanmağa adət edibsiniz. Bu dəfə tərsinə olacaq, hər şeyin rahatlıqla əldə edilməsinə təəccüb edəcəksiniz. Tale sizə sonu gözəl bitən təsadüflər bəxş edəcək. 2017-ci il sizin iliniz olacaq.

Qızlar (23 avqust-22 sentyabr). Qətiyyətli olun, sınaqlardan qalib çıxın. İlin əvvəlindən qərarlı olmalısınız. İl sizə çoxlu imtahanlar hazırlayıb. Bu imtahanlardan uğurla çıxmaq üçün siyasət işlətməli, düzgün taktika seçməlisiniz.

Tərəzi (23 sentyabr-22 oktyabr). İstənilən tapşırığın öhdəsindən gələ bilərsiniz. Tale sizə bir çox şanslar bəxş edəcək. Yapışdığınız bir layihənin öhdəsindən qətiyyətlə gələcəksiniz. Bu ildə sizi böyük inkişaf gözləyir.

Əqrəb (23 oktyabr-21 noyabr). Böyük dəyişikliklərin ərəfəsindəsiniz. Bu ildən sonra həyatınızda yeni inkişaf mərhələsi başlayacaq. Baxışınız dəyişəcək, qarşıdakı 3 ildə böyük pullar qazanacaqsınız.

Oxatanlar (22 noyabr-21 dekabr). Çoxlu perspektivlər ilidir. Bu bürcün nikbinliyi və güclü enerjisi böyük perspektivlər yaradacaq. Oxatanlar problemlərə kənardan baxacaq, rahatca həll yolları tapacaqlar. Xoruz ili bu bürcdən olanlara çoxlu şən anlar bəxş edəcək, həmin anlar da onların gələcəyini dəyişəcək.

Oğlaqlar (22 dekabr-19 yanvar). Özünüzlə məşğul olmağın zamanıdır. Əvvəlcə özünüzü təkmilləşdirin. Dünyaya baxışlarınız dəyişdikcə dünyanın özü də dəyişəcək. Problemləriniz gözünüzdə kiçiləcək, ən kiçik şeylərdən xoşbəxt olmağı bacaracaq, qarşınızdakı bütün əngəlləri bir-bir aşacaqsınız.

Dolça (20 yanvar-18 fevral). Bu il sizin ilinizdir. Xoruz ili ruhən Dolçalara yaxındır. Dolçalar yaradıcı təbiətli, özlələrini əziyyətə salmayan, çətinlikdən qaçan insanlardırlar. Dolça erasının ərəfəsində olduqları üçün onlar özlərinin imkanlarını nümayiş etdirmək fürsəti əldə edəcəklər. Bu il Dolçaların ən gözəl ili oilacaq.

Balıqlar (19 fevral-20 mart). Bu il balıqlar üçün önəmli olacaq. Ömürlərində 10 il davam edən durğunluq başa çatacaq, onlar yeni enerji ilə həyata atılacaqlar, il ərzində hər şeyə sinə gərməyi bacaracaqlar.

Neftçalada birinci qar

Dünya boyda geniş olan bir ömür

Bu kitab öz səhifələrində nəcib bir qəlbin narahat duyğularını həmişə qoruyacaq, mühafizə edəcək, onu oxuyanlara, mütaliə edənlərə çatdıracaq

İstedadlı şairə, yazıçı, publisist Minəxanım Mikayılovanın "Dünya özüməm" adlı ilk kitabının elə titul vərəqindən bu kitabın necə çətinliklə hazırlanıb başa gəldiyinin şahidi olur, bunu aydın şəkildə hiss edib duyursan. Kitabın 2011-ci ildə kompüterin çap qurğusunda çap olunan, 2012-ci ildə cildlənən siqnal nüsxəsinin titul vərəqində müəllifin təşəkkür sözlərini oxuyuruq: "İlk kitabımın ərsəyə gəlməsində mənə köməklik göstərmiş "Gündoğar" qəzetinin baş redaktoru, respublikanın Əməkdar jurnalisti, "Qızıl qələm" mükafatı laureatı Habil Əsədova, "Gündoğar"ın kompüterçisi Fərhad Ağayevə və rayon mərkəzi xəstəxanasının kompüterçisi Cəmilə xanım Hüseynovaya təşəkkür edirəm". Habil müəllim onda onun qələm məhsullarının kompüterdə yazılmasına imkan yaratmışdı, Fərhad Ağayev və Cəmilə Hüseynova isə onları kompüterin yaddaşına ötürmüşdülər. Bundan bir qədər sonra Neftçala şəhərindəki gənclərin intellektual resurs mərkəzinin mərhum rəhbəri, rayon şahmat məktəbinin keçmiş direktoru, tanınmış xeyriyyəçi həmyerlimiz İmanbaxış Şirəliyev şəxsi vəsaiti hesabına Bakıda bu kitabdan 100 nüsxə çap etdirərək müəllifə hədiyyə etmişdi. Mənim kitabxanamdakı nüsxə də elə o nüsxələrdən biridir. İman müəllim artıq dünyada yoxdur, amma onun xeyirxah əməli hələ də yaşayır, bundan sonra da çox illər yaşayacaq. Doğrudan da düz deyiblər insanın özü gedəridi, əməllərisə yaşarı...

Mən yuxarıda Minəxanım Mikayılova haqqında "istedadlı şair, yazıçı, publisist" ifadəsini işlətmişəm. Bu ifadəni çoxları haqqında işlədirlər. İstedadlar həyatda doğrudan çox olur. Amma onların hamısı vaxtında üzə çıxmır, vaxtında oxucuya çatmır. Minəxanım xanımın da istedadı, yazdıqları uzun illər kölgədə qalıb, geniş oxucuya vaxtında çatmayıb. Qonşuluğumuzda yaşadığı üçün orta boylu, uzun hörüklü bu gülərüz qızı mən uşaqlıqdan tanıyırdım. Həmişə sakit-sakit işə gedib gələn, hamı ilə mehribanlıqla görüşən bu qaraşın qızı barmaqla göstərirdilər. Deyirdilər bu qız redaksiyada işləyir, özünün də yaxşı qələmi var, gözəl şeirlər, hekayələr, məqalələr yazır.

Dərsə gedəndən, yazıb oxumağı öyrənəndən sonra Minəxanım xanımın çalışdığı qəzetdə yazdıqlarını özüm də oxudum. Hamısı da xoşuma gəldi. Fikirləşirdim görəsən o niyə yazdıqlarını kitab halına salmır, kitab çıxartdırmır? Kitab çap etdirməyin çətinliyini onda başa düşmürdüm. Axır ki, Minəxanımın da kitabı çıxdı və həmin kitabdan bir nüsxə də bizə gəlib çatdı.

Minəxanım Mikayılovanın əlimdə tutduğum kitabının maraqlı da adı var — "Dünya özüməm". Bu kitabı vərəqləyib oxuduqca bir daha inanır, əmin olursan ki, onun müəllifi doğrudan da geniş üfüqlü, gur çeşməli, sıx ormanlı böyük bir dünyadır — sirli-sehrli, maraqlı bir dünya:

Üfüqlərin naxışıyam,
Sevənlərin baxışıyam,
Gözəllərin naxışıyam,
Dünya, sənin gülünəm mən.
Çeşmələrin gözüm mənim,
Bulaqların sözüm mənim,
Meşələrin özüm mənim,
Dünya özüməm, özüməm...

Elə buna görə də "Gündoğar"ın əməkdaşı, rayonumuzun tanınmış şairlərindən biri olan Zabil Pərviz "Dünya özüməm" kitabı üçün qələmə aldığı ön sözdə yazır:

"Mənim fikrimcə, hər bir insan özlüyündə bütöv, canlı bir planetdir, dağları, dənizləri, gecələri, gündüzləri,.. fəsilləri ilə birlikdə. Məşhur bir atalar sözü var: "Dostunu mənə göstər, sənin kim olduğunu deyim." Söhbət yaradıcı adamdan gedəndə bu fikri belə ifadə etmək mümkündür: "Əsərini mənə göstər, sənin kim olduğunu deyim." Hər sətrindən, hər misrasından səmimiyyət süzülən bu nəğmələr əslində müəllifin özüdür, onun avtoportretidir..."

Minəxanımın qəlbi, ruhu, iç dünyası doğrudan da nəhəngdir, genişdir. Burada günəş də çıxır, şimşək də çaxır, külək də əsir, yağış da yağır, həm sevinc, həm kədər baş verir, müəllif də bu sevinclərlə sevinir, bu kədərlərlə kədərlənir, dünyanın başdan başa sevincə, fərəhə bürünməsini, qərq olmasını istəyir. Budur, Minəxanımın müqtədir şairimiz Məmməd Arazın "Ya rəbbim, bu dünya sən quran deyil" misrasını epiqraf kimi verdiyi "Qalib dünya" şeirində oxuyuruq:

Bu dünyada çox möcüzə—
Yer titrədən zəlzələlər,
Od püskürən vulkanlar var.
Gecələrin bağrın yaran
İldırımlar, qasırğalar.
Dənizlərdə, dəryalarda
Qabarmalar, çəkilmələr.
Görüb duya bildiyimiz
Sirlə dolu bir kainat.
Görünməyən, bilinməyən
Yer üstündə, yer altında,..
Bu dünyada, o dünyada
Daha nələr, daha nələr...
İnsan özü bu dünyada
bir möcüzə...

Düşünürəm kitab doğrudan da qiymətli xəzinədir, hər kitab cildi arasında dəyərli sərvət gizlədir. Minəxanım Mikayılovanın "Dünya özüməm" kitabı da onun insanlara təmənnasız bəxş etdiyi dəyərli bir xəzinədir. Bu kitabda toplanan şeirlər, hekayələr, publisistik yazılar orada hələ çox illər yaşayacaq, onu qaldırıb baxanlara, mütaliə edib oxuyanlara bənzərsiz bir dünya bəxş edəcək...

Pərvin HƏŞİMOV,
rayon mədəniyyət və turizm şöbəsində veteranlar klubunun müdiri

Mənəvi dünyamız: CƏMİYYƏT VƏ AİLƏ

(Əvvəli 6-cı səhifədə)

Müasir dövrdə ailələrin sürətlə dağılmasının əsas səbəblərindən biri qloballaşma, bir çox Avropa xalqlarının millətlərinin heç özləri üçün də xarakterik olmayan, müsbət sayılmayan bir sıra ziyanlı adət-ənənələrin mədəniyyət adı ilə gətirilib bizdə yayılması, təbliğ olunmasıdır. Yeni texnologiyaların, internetin, mobil telefonun da bu işdə az rolu yoxdur. Digər bir amil əbədi gəlin-qayınana problemidir. Bu tək indi yox, bütün dövrlərdə həlledilməz problem olub, bu gün də belə problem olaraq qalmaqdadır. İstər gəlin, istərsə qayınana başa düşməli, anlamalıdır ki, qarşılıqlı güzəşt və hörmət olmadan bu dünyada ömür sürüb yaşamaq ümumiyyətlə mümkün deyil.

Gərək hamılıqla başa düşək, yadda saxlayaq ki, ailə müqəddəs bir yuva, isti bir məkan, kiçik bir dövlətdir, cəmiyyətin əsası, özülü, bünövrəsidir. O həmişə milli, dini, dünyəvi dəyərlərə əsaslanmalı, ailələrin möhkəmliyi hər vasitə ilə qorunmalıdır. Hər bir ailənin dağılması bütövlükdə cəmiyyətin bir kərpicinin qopub düşməsi deməkdir. Buna görə ailəni bütün cəmiyyət qorumalıdır.

Yaxşı olar yeni qurulan ailəyə tam sərbəstlik verilsin, ona yalnız kənardan nəzarət qoyulsun. Ona görə ki, təzə ailəyə hər kənar müdaxilə sonda onun dağılmasına gətirib çıxarır. Təzə ailə quran cavanların tam yetkinlik çağına çatması, kifayət qədər ağıllı, düşüncəli olması da mühüm şərtdir. Erkən qurulan ailələrin daha çox dağılması heç də təsadüfi deyil. Hər bir qayınana gəlninə özünün doğma qızı kimi, gəlin də qayınanasına özünün doğma anası kimi, baldızlarına bacı kimi baxmağı bacarsa çox problem həll olunub yoluna düşər. Yeni qurulan ailələrə valideynlərin xeyir-duası da mühüm şərtlərdən biridir. Valideynin razılığı olmadan qurulan ailələr çox vaxt uğurlu olmur.

Hər şey kimi ailənin də bünövrəsi möhkəm özül üzərində qurulmalı, onun çırağı ilk gündən gur yanmalıdır. Ataların dediyi kimi, ilk gündən elə başlayaq ki, sonuncu gündə peşman olmayaq...

İmamverdi ZEYNALOV,
ağsaqqal müəllim

2017-ci ilin birinci yarısı üçün "Gündoğar"a abunə yazılışı davam edır

Hörmətli oxucular!

Respublikamızın ictimai-siyasi həyatı, rayonumuzda görülən işlər, həyata keçirilən tədbirlər, milli mənəvi dəyərlərimizi, ayrı-ayrı insanların ömür yollarını, talelərini əks etdirən maraqlı yazılar və digər materiallar Neftçala Rayon İcra Hakimiyyətinin təsisçisi olduğu "Gündoğar" qəzetinin ana xəttini təşkil edir. Belə yazıları, materialları oxumaq, özünüz də bu yazıların müəllifləri olmaq istəyirsinizsə onda 2017-ci ilin birinci yarısı üçün qəzetimizə abunə yazılmağı unutmayın.

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi "Gündoğar" qəzetinin əsas maliyyə mənbəyi də abunədir. "Gündoğar" qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Abunə redaksiyada və "Kapitalbank"ın Neftçala filialında nağd və köçürmə yolu ilə həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

Əlaqə telefonumuz: 3-44-03,
mobil: (050) 333-72-30;
(055) 669-56-71

Respublika Dövlət və Xəritəçəkmə Komitəsi tərəfindən Xıllı qəsəbə sakini Zərxanım Kazımbala qızı Kazımovanın adına verilmiş 17 oktyabr 2008-ci il tarixli, A№093876 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyinə görə etibarsız sayılır.

Qədimkənd kənd sakini Ülviyyə Mirqasım qızı Abdullayevanın (Mirələkbərova) adına verilmiş 26 iyun 1993-cü il tarixli, 01-986 qeydiyyat nömrəli (1 nömrəli reyestr kitabının 191-ci səhifəsində qeydə alınmış qeydiyyat vəsiqəsinə əsasən Neftçala rayonu Qoltuq qəsəbəsində yerləşən) fərdi yaşayış evinin qeydiyyat vəsiqəsi itdiyinə görə etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi iş yoldaşları Natiq Kazımova, qardaşı

XANHÜSEYN KAZIMOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"GÜNDOĞAR" qəzeti redaksiyasının kollektivi rayon icra hakimiyyəti başçısının köməkçisi Natiq Kazımova, qardaşı

XANHÜSEYN KAZIMOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala şəhər humanitar təmayüllü "Muğan" liseyinin pedaqoji kollektivi liseyin müəllimi Müşfiq Abdulrəhmanova, anası

GÜLNİSƏ XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "BZ" mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 600 Sifariş №37
Bir nömrənin qiyməti: 40 qəpik.